# YENİ AZƏRBAYCAN

12 sentyabr 2025-ci il, cümə
№ 163 (6990)
Qiymәti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!

# Milli mədəniyyətə böyük qayğı



Bax səh. 2

# Vatikanda Azərbaycan həqiqətlərinin layiqli təbliği



Bax səh. 2

# Türk dövlətlərinin "yaşıl maliyyə" hədəfləri

Bax səh. 4

# Bakının Tehran və Təl-Əviv arasında tarazlıq siyasəti və regional sülhə töhfə



Bax səh. 3

# TransXəzər reallaşır

Bax səh. 4

## Dayanıqlı inkişaf göstəriciləri

Bax səh. 3

## Azərbaycan BMT strukturlarında fəallıq göstərir

Bax səh. 5

## Avropa İttifaqında problemlər artır...

Bax səh. 5

## Qatı sağçı fəal Çarli Kirk öldürüldü

Bax səh. 6



## 246 növ pendirin olduğu ölkə defoltun bir addımlığında...

Bax səh. 7



## Rus dronları Polşa sərhəddini keçsə də...

Bax səh. 6



# Milli mədəniyyətə böyük qayğı

Bu günlərdə daha bir mədəniyyət hadisəsinin şahidi olduq. Belə ki, Prezident İlham Əliyevin iştirakı ilə Bakıda Azərbaycan Yazıçılar Birliyinin Səməd Vurğun adına Yaradıcılıq Evinin açılışı baş tutdu. Kompleks mavi Xəzərin sahilində - Şüvəlan qəsəbəsində 3 hektar ərazidə yaradılıb. Belə bir müasir kompleksin istifadəyə verilməsi ölkəmizdə yaradıcı insanların fəaliyyətinə göstərilən dövlət dəstəyinin növbəti təzahürü olmaqla, ilk növbədə, onların istirahətinin təmin edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.



Mədəniyyət, incəsənət, ədəbiyyat, ana dili bizim milli pasportumuzdur. Zəngin ənənələrimiz, milli-mənəvi dəyərlərimiz, məişətimiz, həyata baxışımız məhz mədəniyyət, incəsənət və ədəbiyyat nümunələri ilə nəsildən-nəslə ötürülərək yaşadılır və bir toplum, xalq olaraq identikliyimizi təmin edir. Mədəniyyət, incəsənət, ədəbiyyat yalnız tarixilik, milli yaddaşın yaşaması baxımından əhəmiyyətli deyil. Müxtəlif janrlarda yüksək sənətkarlıqla, bədii zövqlə yaradılan əsərlər həm də ruhumuza qida verir, bizi həyata bağlayır, gənc nəsli tərbiyələndirir, onların dünya görüşünü zənginləşdirir.

Parlaq əsərləri ilə bizə xoş anlar yaşadan yaradıcı insanlara, bütövlükdə mədəniyyətə, incəsənətə, ədəbiyyata davamlı qayğı göstərilməlidir. Müstəqil Azərbaycanda bunun dövlət, şəxsən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tərəfindən təmin edilməsi həm oxucu-dinləyici kütləsinin, həm də mədəniyyətimizin və yaradıcı insanların böyük xoşbəxtliyidir. Keçmiş sovet hakimiyyəti illərində respublikaya rəhbərlik edən böyük siyasətçi Heydər Əliyev Azərbaycanın gələcək müstəqilliyini düşünərək mədəniyyətə böyük qayğı göstərməklə, Azərbaycan dilinə dövlət dili statusu verilməsinə nail olmaqla insanların özünüdərk hissini gücləndirir, xalqı azadlığa qovuşduracaq milli ideya formalaşdırırdı. Onun mədəniyyət, incəsənət və ədəbiyyat vasitəsilə səpdiyi toxumlar şərait yarandıqda sağlam cücərtilər verdi. Biz XX yüzillikdə ikinci dəfə müstəqilliyə qovuşmağın sevincini və qürurunu yaşadıq.

Hazırkı mərhələdə zamanında böyük siyasətçi Heydər Əliyevin əsasını qoyduğu milli mədəniyyətə və yaradıcı insanlara qayğı siyasətini Prezident İlham Əliyev eyni ardıcıllıqla davam etdirir. Ölkəmizdə yaradıcılıq uğurlarına imza atan şair və yazıçıların, bəstəkarların, rəssamların yubileylərinin keçirilməsi ənənə halını alıb. Prezident İlham Əliyevin müvafiq sərəncamı əsasında Aşıq Ələsgərin 200 illik yubileyinin keçirilməsi, ona paytaxtımızda möhtəşəm abidə ucaldılması bunun əyani təsdiqidir. Yeri gəlmişkən, təkcə son illərdə Bakının ayrı-ayrı guşələrində Bülbülün, Tofiq Quliyevin və digərlərinin əzəmətli heykəllərinin dövlət başçısının iştirakı ilə açılışı baş tutub. Bundan başqa, Bakıda və respublikanın digər şəhərlərində yerləşən teatrların əksəriyyəti əsaslı şəkildə yenidən qurularaq tamaşaçıların ixtiyarına verilib. Dövlətimizin başçısının 2004-cü ildə imzaladığı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” və “Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında” sərəncamlara uyğun olaraq Azərbaycan və dünya ədəbiyyatının görkəmli nümayəndələrinin əsərləri kütləvi tirajla nəşr olunub. Eyni zamanda, Prezident İlham Əliyevin müvafiq sərəncamları əsasında dünya ədəbiyyatının seçmə nümunələri nəfis tərtibatla nəşr olunaraq Azərbaycan oxucularının ixtiyarına verilib.

Siyahı çox uzundur. Eyni zamanda, yaradıcılıq uğurlarına imza atan mədəniyyət və incəsənət xadimlərinin mütəmadi olaraq yüksək dövlət mükafatlarına layiq görülürlər. Mədəniyyət və incəsənət xadimlərinin müəyyən qrupuna Prezidentin fərdi təqaüdünün verilməsi onların sosial müdafiəsi baxımından mühüm əhəmiyyət daşıyır. Bir sözlə, Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində yaradıcı şəxslərin fəaliyyətinin stimullaşdırılması, onların əməyinə yüksək qiymətin verilməsi, sosial təminatlarının, mənzil-məişət şəraitlərinin daha da yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülür. Bundan başqa, istirahət və yaradıcılıq imkanlarının genişləndirilməsi məqsədilə yaradıcılıq ittifaqlarının, yaradıcılıq evlərinin və sanatoriyaların fəaliyyəti də dövlət səviyyəsində dəstəklənir. Azərbaycan dövlətinin həyata keçirdiyi siyasət nəticəsində yaradılmış şərait mədəniyyət və incəsənət sahəsində çalışanların fəaliyyətinin daha da canlanmasına səbəb olmaqla yanaşı, bu sahənin inkişafına mühüm töhfə verir.

*Mübariz ABDULLAYEV*

# Vatikanda Azərbaycan həqiqətlərinin layiqli təbliği

## Heydər Əliyev Fondu Müqəddəs Taxt-Tacla daha iki layihəyə qoşulub

Milli maraqlar üzərində qurulan çoxvektorlu xarici siyasət kursuna malik olan müstəqil Azərbaycanla Vatikan arasında münasibətlər yüksələn xətlə inkişaf edir. Respublikamızla Müqəddəs Taxt-Tac arasında səmimi dialoq və qarşılıqlı anlaşma mühiti bərqərar olub. O cümlədən qarşılıqlı əlaqələrin möhkəmlənməsinə Cənubi Qafqaz coğrafiyasının ən böyük ictimai təşkilatı olan Heydər Əliyev Fondu davamlı töhfələr verir. İndiyədək fondun rəhbəri Mehriban xanım Əliyeva bir neçə dəfə Vatikanda səfərdə olub, Müqəddəs Taxt-Tacın yüksəksəviyyəli rəsmiləri ilə görüşüb. Bu görüşlər bir qayda olaraq izsiz ötüşmür - Mehriban xanım Əliyeva Azərbaycanın zəngin mədəniyyəti, ölkəmizin multikultural mühiti barədə qarşı tərəfə geniş məlumatlar verir, həmçinin müzakirələr zamanı yeni əməkdaşlıq istiqamətləri müəyyənləşdirilir.

Artıq onilliklər əhatə edən səmimi qarşılıqlı əlaqələrin davamı olaraq elə bu günlərdə Heydər Əliyev Fondu ilə Vatikanın ayrı-ayrı qurumları arasında daha iki sənəd imzalanıb. Onlardan biri Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında imzalanan anlaşma memorandumu, digər sənəd isə Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Müqəddəs Taxt-Tacın Bambino Gesu pediatrik xəstəxanası arasında imzalanan əməkdaşlığa dair anlaşma memorandumudur.



Hər iki sənədin imzalanması Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun Müqəddəs Taxt-Taca səfəri çərçivəsində baş tutub. Azərbaycan tərəfindən bəhs olunan sənədləri məhz Anar Ələkbərov imzalayıb. Qarşı tərəfdən isə birinci sənədi Apostol Kitabxanası və Apostol Arxivinin rəhbəri arxiyepiskop Covanni Çezare Paqatzi, ikinci memorandumu isə Bambino Gesu xəstəxanasının rəhbəri Tiziano Onesti imzalayıblar.

## Heydər Əliyev Fondunun Vatikanla sıx əməkdaşlığı

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu ölkə daxilində genişmiqyaslı təhsil, səhiyyə layihələri, humanitar aksiyalar həyata keçirdiyi kimi, xoş məramdan çıxış etməklə oxşar məzmunlu fəaliyyətləri həmçinin respublikamızın hüdudlarından kənarda da reallaşdırmağa nail olur. Fondun dəstəyi ilə ayrı-ayrı ölkələrdə digər mədəniyyətlərə aid tarixi abidələrin bərpası buna nümunədir. Fond tərəfindən belə layihələr həmçinin Vatikanda da uğurla həyata keçirilir. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Pyotr Kilsəsi arasında imzalanmış müqaviləyə əsasən, Müqəddəs Pyotr Kilsəsinin Bazilikasındakı “Roma Papası I Leon ilə Hun imperatoru Atillanın görüşü” barelyefinin və Vatikan Bazilikasındakı katakombalarda yerləşən “Tullius Zethus” məqbərəsinin Heydər Əliyev Fondunun maliyyə dəstəyi ilə bərpa edilməsi mühüm əhəmiyyətə malikdir. 2019-cu ilin fevral ayında Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tacın Arxeologiya Şurası arasında imzalanmış müqaviləyə əsasən “Müqəddəs Komodiliya” katakombalarındakı mavzoleyin bərpası işlərinin aparılması da yüksək dəyərləndirilir. 2016-cı ildə icrasına başlanan və 2018-ci ildə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Müqəddəs Taxt-Tacın Mədəniyyət üzrə Pontifik Şurasının sədri, kardinal Canfranko Ravazinin iştirakı ilə açılışı olan “Müqəddəs San Sebastian kilsə-muzey kompleksində katakombaların bərpası” layihəsi də olduqca önəmlidir. Təsadüfi deyil ki, Mehriban xanım Əliyeva Vatikanda Papa Cəngavər Ordeninin ən ali dərəcəsinə - IX Piy Ordeninin Böyük Xaçına (Dama di Gran Croce dell’ordine Piano) layiq görülüb. O, bu ordenə mədəniyyətin, o cümlədən Müqəddəs Taxt-Tac təsisatları ilə qarşılıqlı əlaqələrin inkişafına verdiyi töhfələrə görə layiq görülüb.

Ötən ilin sentyabr ayında Vatikan şəhəri dövləti üzrə qubernatorluq ilə Heydər Əliyev Fondu arasında Müqəddəs Pavel Bazilikasında bərpa işlərinə dair müqavilə imzalanıb. Sənədi Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov və Vatikan şəhəri dövləti üzrə qubernatorluğun prezidenti, kardinal Fernando Vergez Alzaqa imzalayıblar. Qeyd edək ki, Müqəddəs Pavel Bazilikası Vatikanın ən böyük abidələrindəndir və 1980-ci ildən UNESCO-nun Ümumdünya İrs Siyahısına daxildir. İmzalanan memoranduma əsasən Müqəddəs Pavel Bazilikasında aparılan bərpa işləri Vatikanda hər 25 ildən bir təşkil olunan Müqəddəs Yubiley İlinə Heydər Əliyev Fondunun töhfəsidir. Verilən məlumatlara görə, hər yubiley tədbirində 30 milyondan çox katolik zəvvar Müqəddəs Pavel Bazilikasını ziyarət edir. Təkcə bu fakt Heydər Əliyev Fondunun digər mədəniyyətlərə nə qədər böyük sayğı ilə yanaşdığını əyani şəkildə təsdiqləyir. Heydər Əliyev Fondu respublikamızın hüdudlarından kənarda bu kimi layihələri reallaşdırmaqla Azərbaycan dövlətinin ardıcıllıqla həyata keçirdiyi multikulturalizm siyasətinə öz töhfəsini vermiş olur. Belə layihələr beynəlxalq səviyyədə respublikamızın nüfuzunu yüksəldir. Məlumdur ki, hazırda dünyada multikulturalizmlə bağlı vəziyyət ürəkaçan deyil. Bir sıra ölkələrdə radikal sağ təmayüllü qüvvələr önə keçib, irqçilik, dözümsüzlük halları artıb. Bütün bunlar bəşəriyyət üçün yaxşı heç nə vəd etmir. Dünya inkişafın yüksək səviyyəsinə sivilizasiyaların birgə töhfələri sayəsində çatıb. Azərbaycan öz nümunəsi və siyasi iradəsi ilə bu nailiyyətləri qorumağı, zənginləşdirməyi, multikulturalizmi həyat normasına çevirməyi təşviq edən azsaylı dövlətlərdən biridir. Heydər Əliyev Fondu da həm ölkə daxilində, həm də respublikanın hüdudlarından kənarda digər mədəniyyətlərin qorunmasında fəal iştirak etməklə dövlət siyasətinə davamı dəstək verir.





## Vatikan arxivlərində Azərbaycan tarixi ilə bağlı sənədlərin araşdırılması mümkün olacaq

Müqəddəs Taxt - Tacda Heydər Əliyev Fondu, Azərbaycan Milli Elmlər Akademiyası ilə Vatikan Apostol Kitabxanası və Apostol Arxivi arasında imzalanan anlaşma memorandumunun məqsədi elm və tədqiqat sahəsində birbaşa əməkdaşlıq və təcrübə mübadiləsini dəstəkləmək, həmçinin Vatikan arxivlərində Azərbaycan tarixi ilə bağlı sənədlərin araşdırılması, qorunması və rəqəmsallaşdırılmasını təmin etməkdir.

1475-ci ildə təsis edilən Vatikan Apostol Kitabxanası dünyanın ən qədim və nüfuzlu elmi mərkəzlərindən biri hesab olunur. Zəngin fonduna nadir əlyazmalar, inkunabullar, qədim xəritələr və müxtəlif dillərdə dəyərli nəşrlər daxil olan bu kitabxana yalnız ixtisaslaşmış tədqiqatçılar üçün açıqdır. Vatikan Apostol Arxivi isə 1612-ci ildə Papa V Pavelin fərmanı ilə kitabxanadan ayrılaraq müstəqil qurum kimi formalaşıb. Burada Müqəddəs Taxt-Tacın əsrlər boyu apardığı diplomatik yazışmalar, papaların fərmanları, inzibati qeydiyyatlar və digər rəsmi sənədlər qorunur. Arxiv bu gün dünya üzrə ən mühüm və tədqiqatçılar üçün qiymətli olan tarixi mənbələrdən biri kimi tanınır.

## Birgə tədqiqatlar aparmaq imkanı yaranacaq

Heydər Əliyev Fondu, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və Müqəddəs Taxt-Tacın Bambino Gesu pediatrik xəstəxanası arasında imzalanan əməkdaşlığa dair anlaşma memorandumu çərçivəsində Avropanın ən böyük pediatrik tibb müəssisəsi ilə təlim-tədris proqramlarının həyata keçirilməsi, molekulyar genetika və fərdi tibbi yanaşma sahəsində birgə tədqiqatların aparılması, eləcə də Azərbaycanda müalicəsi mümkün olmayan mürəkkəb klinik halların Bambino Gesu ilə birgə diaqnostikası və müalicəsi nəzərdə tutulur. Əməkdaşlığın əsas istiqamətlərini Azərbaycanda pediatriya sahəsində çalışan tibb işçilərinin peşəkar bilik və bacarıqlarının artırılması, molekulyar genetika, klinik diaqnostika və nadir xəstəliklər sahəsində birgə elmi və klinik fəaliyyətlərin təşkili, habelə genom diaqnostikası və fərdi tibbi yanaşmaların ölkəmizdə tətbiqinin genişləndirilməsi təşkil edir.

1869-cu ildə əsası qoyulan Bambino Gesu xəstəxanası hazırda uşaq xəstəlikləri üzrə Avropanın ən böyük xəstəxanası və tədqiqat mərkəzi, eyni zamanda, bütün növ uşaq orqan, hüceyrə və toxuma transplantasiyasını yerinə yetirmək üçün səlahiyyətli Avropa mərkəzlərindən biridir. Xəstəxana, həmçinin 40-dan çox ölkənin iştirak etdiyi nadir xəstəliklər üçün ən böyük qlobal məlumat bazası olan “Orphanet”in İtaliyadakı qərargahıdır.

*Mübariz FEYİZLİ*

## İran və İsrail dilemmasında: neytrallıqdan əməkdaşlığa...

# Bakının Tehran və Təl-Əviv arasında tarazlıq siyasəti və regional sülhə dəstək

### Yaxın və Orta Şərqin mürəkkəb zolağında sabitlik modeli

Azərbaycan beynəlxalq münasibətlər sistemində özünəməxsus - balanslı, əməkdaşlığı hədəfləyən, sabitliyə və milli maraqlara əsaslanan siyasət yürüdür. Cənubi Qafqazın geosiyasi mövqeyi ölkəmizi xüsusilə Yaxın və Orta Şərq regionunda tənzimləyici rolda çıxışetmə zərurəti ilə üz-üzə qoyub. Çünki bu coğrafiya yalnız imkanlar, geostrateji dividendlər və logistik qovşaq deyil - eyni zamanda mürəkkəb risklər, toqquşan ideoloji baxışlar, bəzən isə hətta düşmənçilik səviyyəsində anlaşmazlıqlar coğrafiyasıdır. Azərbaycan dövləti isə bütün adekvat və qeyri-adekvat çağırışlara qarşı universal cavab formulu formalaşdırır: çoxşaxəli, praqmatik və milli maraqlara əsaslanan, ümumregion mənafeyini təmin edəcək siyasət...

Məhz bu siyasət nəticəsində Azərbaycan müxtəlif blokların, hətta bir-birinə düşmən olan dövlətlərin münasibətlərini balanslaşdıran ölkə kimi tanınır. Türkiyə və İsrail, Suriya və İsrail, hətta müharibənin ilk illərində Rusiya və Ukrayna arasında vasitəçilik təklifi ilə çıxış edən Bakı regional stabilləşdirici faktor olduğunu fəaliyyəti ilə sübuta yetirir. Bunu İran-İsrail münasibətlərinə də şamil etmək olar. Sirr deyil ki, biri digərinin məhvinə çalışan bu iki dövlətlə eyni vaxtda dostluq və ya əməkdaşlıq etmək yalnız peşəkar diplomatiyanın göstəricisi ola bilər.

### 30 ildən artıq davam etdirilən yol...

Bu kimi məsuliyyətli və peşəkar xarici siyasət kursu çox şeydən xəbər verir. Hələ müstəqilliyin ilk dövrlərindən, 1993-cü ildən başlayaraq Azərbaycan yeni geosiyasi reallıqda özünün dövlətçilik kursunu müəyyənləşdirib - ilk mərhələdə bu kurs regional münaqişələrdən yayınmaq və beynəlxalq sistemdə etibarlı tərəfdaş imici qazanmaq üzərində qurulmuşdusa, illər ötdükcə Bakı sivilizasiyalar, mədəniyyətlər arasında dialoq ünvanına, fərqli siyasi baxışların masa arxasında müzakirələr apardığı bir məkan kimi xarakterizə olundu. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın enerji diplomatiyasını formalaşdırmaqla yanaşı, ölkəni beynəlxalq iqtisadi layihələrin əsas oyunçularından birinə çevirdi - bu isə özlüyündə beynəlxalq siyasi sistemə inteqrasiyada olduqca vacib bir rol oynayırdı. Azərbaycan bütün dünya ilə - fərqli qütblərlə, paralel şəkildə bütün qonşularla münasibətləri daha yüksək səviyyədə inkişaf etdirdi. Xarici siyasətdə seçilən əsas xətt isə təcrid olunmaq və ya təcrid etmək deyil, əməkdaşlıq üçün sabitlik formulu idi. Bugünün reallığından boylandıqda əldə olunan nəticələr göz oxşayır:

- Azərbaycan regionun ən aktiv siyasi oyunçusuna çevrilib;
- Qlobal sabitliyin təminatına töhfə verən etibarlı tərəfdaşlardandır;
- Şərq-Qərb, Şimal-Cənub kontentləri üzrə iqtisadi əlaqələr sisteminin ən əsas və aparıcı həlqəsi rolunda çıxış edir;
- Sivilizasiyalararası dialoqun qurulmasında yaxından iştirak edir;
- Nəhayət, sabitləşdirici faktor kimi ön plana çıxır.



Həqiqətən də Azərbaycanın İran-İsrail münasibətlərində tutduğu mövqe, sərgilədiyi yanaşma olduqca yüksək sülhpərvər anlam daşıyır. Qeyd edək ki, tarixi, dini və mədəni bağlara söykənən Azərbaycan-İran münasibətləri bütün sahələr üzrə olduqca yüksək səviyyəli dialoqa əsaslanır. Ən son fakt kimi isə İran Prezidentinin ölkəmizə yaddaqalan səfəri və bu səfər çərçivəsində əlaqələrin inkişafına verilən əhəmiyyətin qeyd olunmasını göstərmək olar.

### Paralel münasibətlər sistemi: açıq, etimada əsaslanan və milli maraqlar çərçivəsində

İsrail ilə münasibətlər də mühüm strateji əsaslara söykənir. 1992-ci ildən qurulan diplomatik əlaqələrdə 2000-ci illərdən başlayaraq hərbi-texniki əməkdaşlıq ön plana çıxıb. İsrail Azərbaycanın mühüm silah tədarükçülərindən birinə çevrilməklə yanaşı, iki ölkə arasında kənd təsərrüfatı və suvarma texnologiyaları üzrə birgə layihələr həyata keçirilir. 2023-cü ildə Azərbaycanın Təl-Əvivdə səfirlik açması isə bu münasibətlərin yeni mərhələsini başlatdı...

Siyasi analitiklər artıq uzun müddətdir ki, davam edən İran-İsrail qarşıdurmasının siyasi, hərbi və ideoloji xarakter daşıdığını bildirirlər. Tehran açıq şəkildə İsrailin mövcudluğunu qəbul etmir, İsrail isə İranı regiondakı ən ciddi təhlükə hesab edir. Belə şəraitdə Azərbaycan hər iki ölkə ilə münasibətləri eyni vaxtda qoruyub saxlayır. Bunun əsasında Bakının tərəf tutmayan diplomatiyası dayanır. Azərbaycan hər iki ölkə ilə münasibətləri ikitərəfli çərçivədə qurur, inkişaf etdirir, onlarin daxili münaqişələrinə qarışmır.

### Məqsədimiz tərəf tutmaq deyil: bir-birlərini qarşılıqlı şəkildə anlamalarına töhfə verməkdir...

Yeri gəlmişkən, Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi səfir Elçin Əmirbəyov I24 News televiziya kanalının fransız redaksiyasına müsahibəsində bir sıra maraqlı məqamlara toxunub. Jurnalistin "Ölkəniz və onun Prezidenti getdikcə daha çox vasitəçi rolunu oynayır. Azərbaycan həm İranın, həm də İsrailin dostudur. Bir-birinə düşmən olan bu iki rejimin baxışlarını necə uzlaşdırırsınız, xüsusilə də İranın İsrailin məhvini istədiyi halda?" sualına cavabında E.Əmirbəyov bildirib ki, Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra hər zaman çoxşaxəli, praqmatik və milli maraqlara söykənən xarici siyasət yürütmüşdür və digər ölkələrlə, o cümlədən İran və İsrail ilə qarşılıqlı hörmət, suverenlik və qarşılıqlı maraqlara əsaslanan ikitərəfli əlaqələr qurur: "Bizim məqsədimiz bu ölkələr arasında fikir müxtəlifliyi kontekstində tərəf tutmaq deyil, əksinə, konstruktiv rol oynamaq və mümkün olduğu təqdirdə onların bir-birlərini qarşılıqlı şəkildə anlamasına töhfə verməkdir. Biz qətiyyətlə inanırıq ki, regional gərginliklər dialoq mane olmamalıdır və gizli diplomatiya bəzən yumşalmaya doğru gözlənilməz yollar aça bilər. Biz, məhz bu ruhda hərəkət edirik: ehtiyatlı, tarazlı və məsuliyyətli şəkildə".



### Düşmən mövqedəki iki ölkənin baxışları necə uzlaşdırılır: Bakı etimad ünvanıdır

Bununla yanaşı, Azərbaycan dolayısı ilə həm də vasitəçi funksiyasını da icra edir. Bakı sübut edir ki, hər iki ölkə ilə əməkdaşlıq mümkündür və bu əməkdaşlıq digərinə qarşı yönəlməyib. Çünki Azərbaycanın xarici siyasətində prinsipial mövqelərdən biri də öz ərazisinin üçüncü dövlətlərə qarşı istifadə olunmasına yol verməmədir. 1990-cı illərdən etibarən Azərbaycan rəhbərliyi dəfələrlə bəyan edib ki, ölkəmizin torpaqları konkret İran əleyhinə platforma olmayıb və olmayacaq. Prezident İlham Əliyev çıxışlarında bildirib ki, Azərbaycan heç vaxt qonşularının daxili işlərinə qarışmayıb və öz ərazisindən başqa dövlətlərə qarşı istifadə olunmasına icazə verməyib. Bu mövqe beynəlxalq təziyiqlərə baxmayaraq, qorunub saxlanılıb və İranla münasibətlərdə etimad mühiti formalaşdırıb.

### Qonşuluq münasibətlərinin inkişaf prioritetləri: gizli diplomatiya mexanizmlərinin üstünlüyü

Ümumiyyətlə, Azərbaycan xarici siyasətində qonşu dövlətlərlə münasibətlərin inkişafına həmişə üstünlük verir. Çünki sabit qonşuluq mühiti olmadan regional əməkdaşlıq və iqtisadi inkişaf mümkün deyil. İranla enerji, nəqliyyat və sərhəd ticarəti sahəsində əməkdaşlıq bu prioritetin nəticəsidir. Digər tərəfdən, İsraillə də münasibətlər Azərbaycanın strateji maraqlarına cavab verir. Enerji ixracı, kənd təsərrüfatı texnologiyaları və müdafiə sahəsində əməkdaşlıq Azərbaycanın təhlükəsizliyi və inkişafı üçün mühüm amil kimi çıxış edir. Paralel olaraq Azərbaycanın siyasətində əsas məqsəd İran və İsrail arasında tərəf tutmaq deyil, konstruktiv mövqe sərgiləməkdir. Bakı çalışır ki, hər iki tərəflə əməkdaşlıq platformaları formalaşdırsın, qarşılıqlı anlaşma imkanlarını genişləndirsin. Bunun bariz nümunəsi Azərbaycanın beynəlxalq tədbirlərdə və BMT çərçivəsində sərgilədiyi mövqedir. Azərbaycan daim dialoqun, əməkdaşlığın və qarşılıqlı hörmətin vacibliyini önə çəkir.

Digər vasitəçilik missiyalarında olduğu kimi, Azərbaycan diplomatiyası bəzi hallarda gizli mexanizmlər vasitəsilə də regionda yumşalmaya doğru yeni imkanlar yaradır. Bakı bütün hallarda ehtiyatlı, tarazlı və məsuliyyətli mövqe tutur. Azərbaycan sübut edib ki, hətta ən mürəkkəb ziddiyyətlər fonunda belə körpüləri yandırmadan siyasət aparmaq mümkündür. Bu, həm dövlətimizin nüfuzunu artırır, həm də ölkəmizi regional sabitlik və əməkdaşlıq üçün etibarlı tərəfdaşa çevirir.

### Sülhü qorumaq üçün: Bizim kollektiv məsuliyyətimiz...

Beləliklə, Azərbaycanın İran və İsrail siyasəti beynəlxalq münasibətlərdə unikal nümunədir. Bakı bir tərəfdən sabitləşdirici və sülhyaratma missiyasını üstlənir, digər tərəfdən isə bölgədə iqtisadi ticarət mühiti üçün münbit zəmin yaradır. İranla qonşuluq münasibətləri, İsraillə strateji əməkdaşlıq paralel şəkildə inkişaf etdirilir. Bütün bunlar göstərir ki, Azərbaycan müstəqil, məsuliyyətli və balanslı siyasət yürütməklə həm özünü, həm də regionu qarşıdurmalardan qoruyur. Elçin Əmirbəyov müsahibəsində onu da bildirib ki, tarix bizə öyrədib ki, böyük böhranlar həm də əməkdaşlıq təmizinə yenidən baxmağımız üçün fürsətə çevrilə bilər: "Buna görə də, eskalasiyanın qarşısını almaq və sülhü qorumaq üçün müdrik, ehtiyatlı və qətiyyətlə hərəkət etmək bizim kollektiv məsuliyyətimizdir".

*Pərviz SADAYOĞLU*

---

# Dayanıqlı inkişaf göstəriciləri

### ÜDM-in həcmi 83 milyard manatı ötüb

2025-ci ilin yanvar-avqust aylarında ölkəmizdə 83 milyard 037,8 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 2,1 faiz azalsa da, qeyri neft-qaz sektorunda 2,6 faiz artım qeydə alınıb.

Belə ki, ÜDM istehsalının 34,9 faizi sənaye, 10,3 faizi ticarət, 7,1 faizi nəqliyyat, 6,3 faizi kənd təsərrüfatı, 6,3 faizi tikinti, 2,8 faizi turizm və ictimai iaşə sektoru, 1,8 faizi rabitə, 20,7 faizi digər sahələrin payına düşür. ÜDM-in tərkibində idxala xalis vergilər 9,8 faiz təşkil edib. Əhalinin hər nəfərinə düşən ÜDM 8 min 111,3 manata bərabər olub.

### Qeyri-neft sənayesində artan əlavə dəyər

ÜDM-in əsas drayveri və ağırlıq mərkəzi qeyri-neft sektorunun payına düşüb. Belə ki, 83 milyard manatlıq əlavə dəyərin təxminən 65-67 faizi qeyri-neft mənbələrinin üzərində cəmləşib ki, bu da nominal ifadədə 60 milyard manata yaxın milli məhsul deməkdir. ÜDM-də əsas sahələrdən biri olan sənaye sektorunda məhsul həcmi 42 milyard manatı üstələyib. Qeyri-neft sənayesində artım daha çox olub və dinamika 4,8 faiz təşkil edib. Bu amil də sənayeləşmənin əsas strukturlarının qeyri-neft sütunları üzərində inkişaf etdiyini təsdiqləyir.

Xüsusilə də ölkəmizin sənaye potensialının və iqtisadi gəlirlərin yüksəlməsində sənaye parklarının rolunun artması ümumi qeyri-neft sənayesinin dinamikasını artırır. Həmçinin, Hacıqabul Sənaye Məhəlləsinin əsasında Hacıqabul Sənaye Parkının yaradılması, azad ərazilərdəki sənaye sektorlarının, xüsusilə də Ağdam Sənaye Parkındakı 5-dən artıq müəssisənin fəaliyyətə başlaması, həmçinin "Araz "Araz Vadisi İqtisadi Zonası"nda rezidentlərin ilk istehsal mallarının tədarükünün başlanması ümumi sənaye potensialının yüksəlməsi və ixracının artmasında öz rolunu göstərməkdədir. Qeyri-neft sənayesinin inkişafı ümumilikdə, neftdənkənar mənbələrin hazırda həm də əsas əlavə dəyər formalaşdıran fiskal sahə olduğunu göstərir.

**İstehlak qiymətləri indeksi, faizlə**

| | 2025-ci ilin avqust ayı | | 2025-ci ilin yanvar-avqust ayları |
|---|---|---|---|
| | əvvəlki aya nisbətən | əvvəlki ilin müvafiq ayına nisbətən | 2024-cü ilin yanvar-avqust aylarına nisbətən |
| **Cəmi məhsullar və xidmətlər** | **100,4** | **104,9** | **105,6** |
| qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları | 100,3 | 106,6 | 106,6 |
| qida məhsulları | 100,3 | 106,8 | 106,8 |
| alkoqollu içkilər | 100,3 | 103,2 | 103,4 |
| tütün məmulatları | 100,0 | 102,7 | 102,0 |
| qeyri-qida məhsulları | 100,1 | 102,1 | 102,6 |
| ödənişli xidmətlər | 100,6 | 104,9 | 106,9 |

### 11,4 milyard manat investisiya qoyuluşu

Ötən 8 ayda ölkədə sərmayə axıcılığı da dayanqlı xarakter daşıyıb, əsas kapitala 11,4 milyard manata yaxın vəsait qoyulub . Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 16,6 faiz azalsa da, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 8 faiz yüksəlib. İnvestisiyanın 5,8 milyard manatı və ya 51 faizi məhsul istehsalı sahələrinə, 3,8 milyard manatı və ya 33,6 faizi xidmət sahələrinə, 1,8 milyard manatı və ya 15,4 faizi isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş investisiyaların 8,8 milyard manatını və ya 77 faizini daxili investisiyalar təşkil edib. Xarici investisiyaların həcmi 2,6 manata bərabər olub. Sərmayələrin 9 milyard manata yaxını bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilib.

Yeri gəlmişkən, qeyd edilən dövrdə qeyri-neft ixracında da əhəmiyyətli artım əldə edilib və burada da qeyri-neft sənayesi mallarının payı yüksəlib. Ümumilikdə, xarici bazarlara 2,3 milyard dollardan artıq qeyri-neft məhsulları göndərilib. İxracda aqrarsənaye və yeyinti sektorunun payında daha yüksək artım qeydə alınıb.

### Əhalinin gəlirləri və orta aylıq əməkhaqqı artıb

2025-ci ilin yanvar-avqust aylarında əhalinin nominal gəlirlərində, bank əmanətlərində, ünvanlı sosial yardımın məbləğində, muzdlu işçilərin orta aylıq əməkhaqqında da artımlar qeydə alınıb. Əhalinin nominal gəlirləri əvvəlki ilin eyni dövrü ilə müqayisədə 7 faiz artıb. Ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı və maaşlarında da dinamika qeydə alınıb. Belə ki, muzdlu işçilərin sayı 1 milyon 768,4 min nəfər olub ki, onun böyük bir hissəsi (910,3 min nəfər) qeyri-dövlət sektorunda fəaliyyət göstərənlərdir. Muzdla işləyənlərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 9,5 faiz artaraq 1098,1 manat təşkil edib. İqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, informasiya və rabitə, peşə, elmi və texniki fəaliyyət, eləcə də nəqliyyat və anbar təsərrüfatı sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub. Özəl müəssisələrdə çalışan işçilərin orta nominal gəlirləri 1200-2000 manat civarında olub ki, bu da biznes sektorunda fəallığın nəticəsi hesab edilə bilər.

Qeyd edilən dövrdə istehlak qiymətləri indeksi əvvəlki ilin müvafiq dövrünə nisbətən 105,6 faiz təşkil edib. Bu isə əhalinin real gəlirlərinin inflyasiyanı bir neçə faizbənd üstələdiyini göstərir. Nəticədə, həm əhalinin orta aylıq əməkhaqqı, həm də real gəlirləri inflyasiyanı üstələməklə onların sosial rifah vəziyyətinə müsbət təsir edib.

### Qeyri-neft sektorunun ÜDM-də payı 80 faizə yaxınlaşır




Cari ilin 8 aylıq makroiqtisadi göstəriciləri onu təsdiqləyir ki, ölkə iqtisadiyyatının inkişafında ağırlıq mərkəzi tamamilə qeyri-neft sektorunun üzərinə transformasiya olunmaqdadır və hökumətin neft ÜDM-dən qeyri-neft ÜDM-ə keçid strategiyası özünü doğrultmaqdadır. Hökumətin yaxınmüddətli iqtisadi inkişaf ssenarilərinə əsasən, neft-qaz sektorunun tədricən daralacağı şəraitdə iqtisadi artımın əsas hərəkətverici qüvvəsi qeyri-neft gəlirləri olacaq. Ortamüddətli Xərclər Çərçivəsi sənədində və İqtisadiyyat Nazirliyi tərəfindən təqdim olunmuş proqnoz icmalında 2025-ci ilin sonuna ÜDM-in həcmi 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcmi 92,2 milyard manat təşkil edəcəyi öz əksini tapıb. Orta müddətdə ÜDM-in real artım tempinin orta illik 3,3 faiz, qeyri-neft ÜDM-in isə 5 faiz olacağı proqnozlaşdırılır. 2024-cü ildə neft-qaz sektoru üzrə ÜDM-in real ifadədə 0,3 faiz artacağı ehtimal edilib. Bu dinamika sonrakı illər üzrə davamlı şəkildə yüksələcək və 2028-ci ildə ÜDM-in tərkibində qeyri-neft sektorunun payı daha da artaraq 77,8 faizə çatacaq, neft-qaz sektorunun payı isə 22,2 faizə bərabər olacaq.

*E.CƏFƏRLİ*

# TransXəzər reallaşır

## TRIPP-in həyata keçirilməsi regionun enerji xəritəsini də dəyişəcək

TransXəzər qaz kəmərinin inşası ABŞ-ın xarici siyasət gündəminə, o cümlədən Cənubi Qafqaz vasitəsilə Avropanı Mərkəzi Asiya ilə birləşdirən “Tramp Marşrutu” (TRIPP) adlı təşəbbüsə mükəmməl şəkildə uyğun gəlir. Bu fikri Hadson İnstitutunun baş elmi işçisi Lyuk Koffi “Arab News” nəşrində dərc olunan məqaləsində bildirib.

Xatırladaq ki, TransXəzər qaz kəməri ideyası ilk dəfə 1997-ci ildə Türkiyənin Türkmənistan qazını almaq planları ilə bağlı gündəmə gəlmişdi. ABŞ tərəfindən dəstəklənən bu layihənin reallaşması üçün hüquqi-iqtisadi mexanizmlər də formalaşır və 1999-cu il fevralın 19-da Aşqabadda təntənəli surətdə Türkmənistan hökuməti ilə PGS konsorsiumu arasında kommersiya müqaviləsi imzalanır. Müqaviləyə ABŞ Prezidentinin və Dövlət katibinin Xəzər regionunun enerji məsələləri üzrə müşaviri Riçard Morninqstar da imza atır. Sazişə əsasən, Türkiyə TransXəzər kəməri vasitəsilə ildə 30 milyard kubmetr qaz almağa dair öhdəlik götürür. Kəmərin 28 ay müddətində həm türkmən hissəsinin, həm də sualtı hissəsinin tikilməsini başa çatdırmaq nəzərdə tutulurdu. Azərbaycan və Gürcüstan üzərindən keçəcək yerüstü hissə Ərzurumda başa çatmalıydı. O zaman türkmən qazının Avropa bazarına çıxarılması gündəmdə olmasa da, perspektiv bazar kimi Türkiyə-Qərb marşrutunun yaradılması istisna olunmurdu.

### 25 il əvvəlki maneələr aradan qalxmaqdadır

Rusiya və İran TransXəzər qaz kəmərinin çəkilişinə razı olmadığından dövlət səviyyəsində Aşqabada qarşı müxtəlif təzyiqlər baş verdi və Türkmənistan prezidenti Saparmurad Niyazov tərəddüdlər içərisində layihənin reallaşmasını ləngitdi. Nəticədə PGS konsorsiumu 2000-ci ilin ortalarında ləğv edildi.

Hazırda qlobal fraqmentasiyalar, ələlxüsus da Avropa Birliyinin Rusiya qazından imtina etməsindən sonra yanacağa olan əlavə tələbatlar və digər amillər Türkmənistan qazının Xəzər dənizi və Azərbaycan vasitəsilə Türkiyəyə nəqlini nəzərdə tutan TransXəzər qaz kəməri ideyası yenidən aktuallaşıb.

2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan Prezidenti İlham Əliyev, Ermənistanın Baş naziri Nikol Paşinyan və ABŞ Prezidenti Donald Trampın iştirakı ilə keçirilən üçtərəfli görüşdə Orta Dəhlizin mühüm seqmentlərindən sayılan Zəngəzur dəhlizi ilə bağlı müzakirələrin aparılması TransXəzər qaz kəməri layihəsinə ümidləri bir qədər artırır. Məlum olduğu kimi, həmin görüşdə beynəlxalq tərəqqi və tranzit imkanlarının genişləndirilməsi üçün əlverişli hesab edilən və “Beynəlxalq Sülh və Rifah üçün Tramp Marşrutu” - TRIPP) adlandırılan Zəngəzur dəhlizi ilə bağlı kommersiya və təhlükəsizlik mexanizmləri üzərində ilkin razılaşma da əldə edildi. Belə bir fikir ifadə olundu ki, bu addım regionun logistika xəritəsini dəyişdirə və enerji-ticarət axınlarını yönləndirə bilər.

ABŞ-ın Hadson İnstitutunun baş elmi işçisi Lyuk Koffi bir neçə gün əvvəl “Arab News” nəşrində dərc olunan məqaləsində bildirib ki, TRIPP-ın həyata keçirilməsi fonunda TransXəzər qaz kəmərinin inşası yeni impuls qazanacaq. Onun fikrincə, kəmərin inşası ABŞ-ın xarici siyasət gündəminə, o cümlədən Cənubi Qafqaz vasitəsilə Avropanı Mərkəzi Asiya ilə birləşdirən “Tramp marşrutu” adlı təşəbbüsə tam uyğun gəlir. L. Koffinin qənaətinə görə, Azərbaycanın təşəbbüsü ilə ərsəyə gələn Şərq-Qərb enerji layihələri Xəzər regionunun enerji resurslarına qlobal bazarların çıxışını təmin edərək Qərblə əlaqələrin dərinləşməsinə də töhfələr verməkdədir. Bu rifah və əməkdaşlıq alyansının genişlənməsi zərurətləri hazırda TransXəzər qaz kəməri layihəsini də labüdləşdirir. Hazırda TransXəzərin gerçəkləşməsi üçün əlverişli fürsət yaranıb və bu kəmər inşa olunarsa, bu bütün region üçün dönüş nöqtəsi olacaq, Avropanın enerji təhlükəsizliyi təmin ediləcək. Türkmənistan üçünsə əlavə gəlir mənbəyi açılacaq və Avrasiya məkanında geosiyasi sabitlik güclənəcək.




Türkmən qazının Azərbaycan üzərindən Türkiyəyə nəqli geoiqtisadi əhəmiyyət daşımaqla Azərbaycanın tranzit ölkə kimi həm mövqeyini artıracaq, həm də tranzit gəlirləri əldə etməsinə səbəb olacaq. Bu layihə Bakı və Ankaranın iqtisadi inteqrasiyasına daha yeni şaxə əlavə etməklə iki ölkənin iqtisadi zəncirlərinin birləşməsində əlavə təhlükə-

### Türkmənistan - Azərbaycan - Türkiyə enerji müttəfiqliyi

Məlum olduğu kimi 2025-ci il martın 1-dən etibarən Türkmənistan qazı Türkiyəyə nəql olunur. BOTAŞ və “Türkmənqaz” arasında əldə edilmiş razılaşmaya əsasən, Türkmənistan qazı Azərbaycan üzərindən Türkiyəyə çatdırılır.

Türkmənistanın “Türkmənqaz” Dövlət Konserni, Azərbaycanın Energetika Nazirliyi və Türkiyə Respublikasının Energetika və Təbii Sərvətlər Nazirliyi tərəfindən imzalanmış “Energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı anlaşmaya dair Qurumlararası Memorandum”u sözügedən qaz layihəsini gerçəkləşdirən hüquqi bazadır və enerji əməkdaşlığının daha da genişləndirilməsi nəzərdə tutulur.

Türkiyənin enerji və təbii sərvətlər naziri Alparslan Bayraktar bildirib ki, ilkin mərhələdə Türkiyəyə 2 milyard kubmetr qazın çatdırılması nəzərdə tutulur. Gələcəkdə bu həcmin daha da artırılacağı və həcm artdıqca türkmən qazının Türkiyənin daxili tələbatı ilə yanaşı, Avropa regionlarına nəqli istisna edilmir. Göründüyü kimi, Ankara öz geosiyasi mövqeyindən istifadə edərək Türkmənistan qazını Avropaya çatdırmaq öhdəliyini götürmək istəyir. Rusiya-Ukrayna müharibəsi nəticəsində Avropanın enerji problemi ilə üzləşdiyi bir zamanda alternativ yollar axtarışına başlanıb. Alternativ yollardan biri hesab edilən Türkmənistan qazının Avropaya çatdırılması da bu ssenarilərdən biridir.

Son dövrlərdə strateji tərəfdaşlıq səviyyəsinə çatan Azərbaycan-Türkmənistan münasibətləri və enerji sahəsində birgə əməkdaşlığa dair anlaşma da TransXəzərin reallaşmasına inamı artırır. Lyuk Koffi bu məqama nəzərə salaraq Prezident İlham Əliyevin uğurlu Vaşinqton səfərindən sonra Aşqabadda olması yeni enerji təşəbbüskarlığı fonunda adıçəkilən layihənin praktiki fazaya daxil olması ehtimalları da güclənir.

### Türkmənistan Cənub Qaz Dəhlizi ailəsinə qoşulur

sizlik amilinə çevriləcək. Digər əsas məqam Türkmənistan-Azərbaycan-Türkiyə enerji ittifaqının formalaşmasıdır. Hər 3 qardaş ölkə bu strateji qərarın gerçəyə çevrilməsi ilə Türk ailəsinin iqtisadi inteqrasiya proqramının əhatəsini daha da genişləndirmiş olacaq. Layihə geosiyasi əhəmiyyət daşımaqla Avropanın enerji təchizatının təhlükəsizliyinə mühüm töhfə verəcək.

Beləliklə, regionda baş verən yeni geoiqtisadi proseslər və qaz nəqlində diversifikasiyaların genişlənməsi TransXəzər qaz dəhlizinin yaranmasına xidmət edir. Xəzər bölgəsinin böyükhəcmli yanacaq ehtiyatlarının Qərbə daşınmasında isə əsas tranzit və infrastruktur təminatı Azərbaycanın üzərinə düşəcək. Respublikamız təkcə öz enerji ehtiyatlarını deyil, Xəzəryanı ölkələrin də resurslarını Avropaya nəql edərək Mərkəzi Asiya ilə Avropa arasında iqtisadi bağlantını təmin edəcək.

**ELBRUS CƏFƏRLİ**

# Türk dövlətlərinin “yaşıl maliyyə” hədəfləri

## “Türk Dünyasına Yaşıl Baxış” kommünikesi vahid maliyyə siyasətinin həyata keçirilməsini nəzərdə tutur

Qazaxıstanın Astana şəhərində keçirilən Türk Dövlətlərinin Yaşıl Maliyyə Şurasının Birinci Toplantısında “Türk Dünyasına Yaşıl Baxış”adlı kommünike imzalanıb. Sənəddə “yaşıl” maliyyə alətlərinin inkişafı, dayanıqlı maliyyə strategiyaları və taksonomiyaların işlənib hazırlanması, həmçinin əməkdaşlığın genişləndirilməsi, təcrübə mübadiləsi və biliklərin ötürülməsinin asanlaşdırılmasının vacibliyi vurğulanır. Üzv dövlətlər “yaşıl maliyyə” sahəsində regional əməkdaşlığın dərinləşdirilməsi istiqamətində ardıcıl layihələr həyata keçirmək niyyətlərini ifadə edib.

Azərbaycan Mərkəzi Bankının baş direktoru Şahin Mahmudzadənin iştirak etdiyi toplantıda Türk dövlətlərinin rəqəmsal mərkəzə çevriləcək “yaşıl maliyyə” platformasının qısa zamanda fəaliyyətə başlaması üçün təşəbbüslər yekdilliklə dəstəklənib.

Xatırladaq ki, Türkdilli Ölkələrin Yaşıl Maliyyə Şurası 2024-cü il noyabrın 6-da Bişkekdə keçirilən Türk Dövlətləri Təşkilatının (TDT) Dövlət Başçılarının 11-ci Zirvə görüşü çərçivəsində imzalanmış anlaşma memorandumu əsasında təsis olunub. Şuranın yaradılmasında əsas başlıca hədəf TDT ölkələrinin mərkəzi bankları arasında səmərəli əməkdaşlığın gücləndirilməsi, pul-kredit siyasətinin tənzimlənməsi, maliyyə sabitliyinin təmin olunması, ödəniş sistemlərinin inkişafı, maliyyə və rəqəmsal texnologiyaların tətbiqi və digər sahələrdə həyata keçirilən siyasətlərin vahid platformada əlaqələndirilməsi, təcrübə mübadiləsi məqsədilə birgə məsləhətləşmələr və tədqiqatların aparılmasıdır. Şura üzv təşkilatlar arasında ekoloji, sosial və idarəetmə (ESG) sahələrində investisiyaları təşviq etmək, “yaşıl” və davamlı maliyyənin inkişafı üçün dəstəkləyici praktiki addımlar atmaq və digər rəqəmsal proqramlarda birgə iştirak üçün əlaqələndirici rol oynamaq öhdəliyini üzərinə götürüb.




### Rəqəmsal bank platforması - Fintex Alyansı...

TDT-nin bank sahəsində əməkdaşlığının yeni istiqamətlərindən biri kimi Fintex Alyansında bir araya gəlmələri də mühüm əhəmiyyət kəsb edir. Alyans maliyyə texnologiyalarının inkişafı, qanunvericilik və tənzimləmə, maliyyə inklüzivliyinin artırılması, startap ekosisteminin dəstəklənməsi, beynəlxalq ödənişlərin və köçürmələrin asanlaşdırılması, kibertəhlükəsizlik və bir sıra digər sahələrdə daha sıx əməkdaşlıq, təcrübə mübadiləsi və birgə layihələrin həyata keçirilməsini nəzərdə tutur. Bu, TDT-nin Mərkəzi Banklar Şurasının təşəbbüsləri və planlarının bir hissəsi sayıla bilər.

Türk dövlətləri fintex ailəsində birləşməklə “yaşıl maliyyə” texnologiyaları sahəsində vahid rəqəmsal ödəniş infrastrukturu da yaratmaqda qərarlıdır. Həmin infrastrukturların qurulması sayəsində türkdilli ölkələrin müasir elektron bank məhsulları və arxitekturasının imkanları əlaqələndirilə, o cümlədən rəqəmsal valyutaların tətbiqi imkanları, ani ödəniş sistemlərindən istifadənin artırılması, açıq bankçılıq modelinin tətbiqi, habelə yaşıl bank xidmətərindən birgə istifadə, mərkəzi banklar arasında kibertəhlükəsizlik sahəsində məlumat mübadiləsinin genişləndirilməsi mümkün olacaq.

### Türk İnvestisiya Fondu sərmayələri təşviq edir

TDT-nin maliyyə-bank strategiyasının əsas şaxələrindən biri də üzv ölkələr arasında qarşılıqlı maliyyə və investisiyaların hərəkətini stimullaşdırmaq, birgə sərmayə yatırımlarını təşviq etməkdir. Bu baxımdan həmin iqtisadi baxışı özündə əks etdirən və vahid maliyyə platformasına çevrilən Türk İnvestisiya Fondu (TİF) 2024-cü il noyabrın 1-dən fəaliyyətə başlayıb. 500 milyon dollar portfeli olan fond ilk layihələrin icrasına start verib və yeni sahələrdə sərmayə qoyuluşları planlarını nəzərdən keçirir. İnvestisiya fondu türkdilli ölkələrin iqtisadi-maliyyə-sərmayə baxışlarını və gələcək investisiya planlarını müəyyən etmək və həyata keçirmək üçün vahid donorluq funksiyasını üzərinə götürüb. Fondun məqsədi regiondaxili ticarəti genişləndirmək və iqtisadi fəaliyyətləri dəstəkləmək vasitəsilə TDT dövlətlərinin iqtisadi inkişafına töhfə verməkdir.

Fondun investisiya fəaliyyəti beynəlxalq və milli maliyyə və inkişaf institutları, eləcə də ticarət palataları və özəl müəssisələr ilə əməkdaşlığı təmin etmək, nəqliyyat və logistika zəncirlərinin, saxlama və istehsal imkanlarının genişləndirilməsini dəstəkləmək, mikro, kiçik və orta müəssisələrin layihələrini maliyyələşdirmək, rəqəmsal iqtisadiyyatı təşviq etmək və digər prioritetlərə fokuslanıb. Strateji yol xəritəsinə əsasən, TDT üzvləri ilə yanaşı, üçüncü dövlətlərin də TİF-nun layihələrində iştirakı nəzərdə tutulur ki, burada türk dövlətləri ailəsinin strateji proqramlarında yer alan ölkələrin, o cümlədən Macarıstan, Rumıniya, Gürcüstanın bu maliyyə zəncirinə qoşulması deməkdir.

Bu məqsədlərə çatmaq üçün fondun maliyyə portfelinin növbəti mərhələdə daha da artırılaraq 1 milyard dolları ötəcəyi istisna olunmur. Türk İnvestisiya Fondunun maliyyələşdirmə strukturunun formalaşmasında üzv dövlətlərin birbaşa kapital resursları ilə yanaşı, fiziki və ya hüquqi şəxslərin də maliyyəsinin cəlb edilməsi nəzərdə tutulub ki, bu da türk dövlətlərinin iri şirkətlərinin, sahibkarlar icmasının bu prosesdə fəal rol oynaması deməkdir.

Beləliklə, Türk Dövlətlərinin Yaşıl Maliyyə Şurasının yaradılması türk maliyyə və bank ailəsinin xarici bazar iştirakçıları ilə rəqabətdə mövqelərini möhkəmləndirə bilər. Bu platforma Asiya və Avropa regionunda böyük bir yeni maliyyə ekosisteminin əsasını qoymaqla, türk ölkələrinin təşəbbüskarlığı sayəsində Çindən Avropaya qədər uzanan “yaşıl maliyyə” coğrafiyasının formalaşmasında da təşviqedici rol oynayacaq.

**E.CƏFƏRLİ**

# Azərbaycan BMT strukturlarında fəallıq göstərir

Azərbaycan həm ikitərəfli münasibətlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində fəal xarici siyasət həyata keçirir. Bu baxımdan, ölkəmizin Birləşmiş Millətlər Təşkilatı (BMT) müstəvisində aktivliyi xüsusi vurğulanmalıdır. BMT İnsan Hüquqları Şurasının 60-cı sessiyasında Azərbaycanın bəyanatının səsləndirilməsi bunun göstəricisidir. Bəyanatla bağlı ölkəmizin Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyinin "X" sosial media hesabında paylaşım edilib.

## Bəyanatda hansı məqamlar var?

Bəyanatda Azərbaycanın ərazi bütövlüyü və suverenliyini bərpa etdikdən sonra Qarabağ və Şərqi Zəngəzur bölgələrində genişmiqyaslı bərpa, yenidənqurma və şəhərsalma fəaliyyətləri həyata keçirdiyi vurğulanıb. "Böyük Qayıdış üzrə Dövlət Proqramı çərçivəsində aparılan təşəbbüslərə sosial xidmətlər şəbəkəsinin yaradılması, infrastrukturun inkişafı, mənzil şəraiti və məşğulluq imkanlarının təmin edilməsi, həmçinin keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışı üçün keyfiyyətli səhiyyə və təhsil xidmətlərinin göstərilməsi daxildir. Bu səylərin nəticəsində artıq 50 mindən çox keçmiş məcburi köçkün ata-baba torpaqlarına qayıdıb", - deyə bəyanatda bildirilib. Son zamanlar Azərbaycan-Ermənistan normallaşma prosesi çərçivəsində əhəmiyyətli irəliləyişlərin də əldə olunduğuna diqqət çəkilən bəyanatda 8 avqust tarixində Vaşinqtonda Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və ABŞ Prezidenti şahid qismində iştirak etməklə, ikitərəfli münasibətlərin normallaşdırılması və regionda dayanıqlı sülhün yaradılmasına yol açan Birgə Bəyannamənin imzalandığı xüsusilə qeyd olunub.

Vurğulanıb ki, Birgə Bəyannamənin mühüm müddəalarından biri iki ölkə arasında nəqliyyat və kommunikasiya xətlərinin açılması öhdəliyidir: "Bu təkcə regiona deyil, daha geniş coğrafiyaya da fayda gətirəcəkdir. Bundan əlavə, Azərbaycan və Ermənistan sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş layihəsini paraflamışdır ki, bu da mehriban qonşuluq münasibətlərinin qurulması üçün parametrləri müəyyən edir. Biz üzv dövlətləri bu səyləri dəstəkləməyə çağırırıq".



## UNHRC-in funksiyası nədir?

Qeyd edək ki, İnsan Hüquqları Şurası (UNHRC) Birləşmiş Millətlər Təşkilatının orqanıdır və onun missiyası bütün dünyada insan hüquqlarını təşviq etmək və qorumaqdır. Şuranın regional qrup əsasında mərhələli üç il müddətinə seçilən 47 üzvü var. Şuranın Baş Qərargahı Birləşmiş Millətlər Təşkilatının İsveçrədəki Cenevrə bölməsində yerləşir. Şura BMT-yə üzv dövlətlərdə insan hüquqlarının pozulması ilə bağlı iddiaları araşdırır. Bu araşdırmalara birləşmək və toplaşmaq azadlığı, ifadə azadlığı, inanc və din azadlığı, qadın hüquqları, irqi və etnik azlıqların hüquqları daxildir. Onu da xatırladaq ki, bu qurum BMT-nin Baş Assambleyası tərəfindən 15 mart 2006-cı ildə Birləşmiş Millətlər Təşkilatının İnsan Hüquqları Komissiyasını (UNCHR) əvəz etmək üçün yaradılıb. Şura İnsan Hüquqları üzrə Ali Komissarlığın İdarəsi (OHCHR) ilə sıx əməkdaşlıq edir və Birləşmiş Millətlər Təşkilatının xüsusi prosedurlarını həyata keçirir.

UNHRC ildə üç dəfə, mart, iyun və sentyabr aylarında müntəzəm sessiyalar keçirir. UNHRC istənilən vaxt üzv dövlətlərin üçdə birinin tələbi ilə insan hüquqlarının pozulması və fövqəladə halların həlli üçün xüsusi sessiyanın keçirilməsi barədə qərar qəbul edə bilər.


Azərbaycan Respublikasının Cenevrədəki BMT Bölməsi və digər beynəlxalq təşkilatlar yanında Daimi Nümayəndəliyi
Permanent Mission of the Republic of Azerbaijan to the UN Office and other International Organizations in Geneva

UN Human Rights Council
Sixtieth session

General Debate under Agenda Item 2

Statement by the Permanent Mission of the Republic of Azerbaijan to the UN Office and other International Organizations in Geneva

Geneva, 10 September 2025

Mr. President,

Following the restoration of its territorial integrity and sovereignty, Azerbaijan has been carrying out large-scale restoration, reconstruction and urban planning activities in its Garabagh and East Zangezur regions. The initiatives which are underway within the State Program on the Great Return to the liberated territories include the establishment of a social services network, development of infrastructure, providing decent housing conditions and employment opportunities for the former IDPs returning to their homelands, providing quality healthcare and education services. As a result of these efforts, more than 50,000 former IDPs already returned to their ancestral lands.

Recently a significant progress has been achieved in the context of the Azerbaijan-Armenia normalization process.

On August 8, 2025 in Washington President of Azerbaijan and Prime Minister of Armenia, and the President of the United States as a witness, signed a Joint Declaration which sets a path towards normalization of bilateral relations and establishment of a lasting peace in the region.

One of the important provisions of the Joint Declaration is the commitment to opening transportation and communication links between the two countries which will benefit not only the region but a wider geography.

Furthermore, Azerbaijan and Armenia initialed the Draft Agreement on Establishment of Peace and Inter-State Relations, which defines the parameters for establishing good-neighborly relations.

We call on the Members States to support these efforts.

Sovereign equality, respect for territorial integrity and non-interference in internal affairs of States are fundamental principles enshrined in the Charter of the United Nations. We oppose

## Ölkəmizin təşəbbüsü ilə qurum bir sıra sənədlər qəbul edib

Ümumiyyətlə, Azərbaycan bu qurum çərçivəsində hər zaman fəallıq göstərir. Bu fəallığın nəticəsində ölkəmiz 2006-2009-cu illər üçün BMT-nin İnsan Hüquqları Şurasına üzv seçilib. Yalnız üzvlüklə kifayətlənməyərək qurumun tədbirlərində bir sıra sənədlərin qəbul edilməsinə nail olunub. Belə ki, 23 mart 2021-ci il tarixində BMT-nin İnsan Hüquqları Şurasının 46-cı sessiyası çərçivəsində Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü ilə "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə qəbul edilib. Qətnamə inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında COVID-19 əleyhinə peyvəndlərin ədalətsiz və qeyri-bərabər bölüşdürülməsi məsələsinin insan hüquqlarından istifadəyə mənfi təsiri məsələsinə diqqəti çəkir və bunun pandemiyanın tamamilə aradan qaldırılmasında, eləcə də BMT-nin Dayanıqlı İnkişaf Gündəliyində nəzərdə tutulan məqsədlərə nail olunmasında başlıca əngəllərdən biri olduğunu vurğulayır. Qətnaməyə, ümumilikdə, 137 dövlət həmmüəlliflik edib ki, bu da BMT-nin İnsan Hüquqları Şurasında qəbul edilən qətnamələr üçün olduqca yüksək göstəricidir.

Azərbaycanın təşəbbüsü ilə təşkilatın 48 və 50-ci sessiyalarında isə müvafiq olaraq irəli sürülmüş "Minaların insan hüquqlarına təsiri" və "İrqçilik, irqi ayrı-seçkilik, ksenofobiya və digər əlaqəli dözümsüzlüklə mübarizədə təhsilin rolu" mövzularında birgə bəyanatlar çox sayda dövlət tərəfindən dəstəklənib. Bundan başqa, 3 aprel 2023-cü ildə Cenevrədə BMT-nin İnsan Hüquqları Şurasının 52-ci sessiyası çərçivəsində Azərbaycanın təşəbbüsü ilə irəli sürülmüş "Dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması vasitəsilə insan hüquqlarının və Davamlı İnkişaf Məqsədlərinin təşviqi" adlı qətnamə yekdilliklə qəbul edilib. Bu qətnaməyə 65 dövlət, o cümlədən ABŞ, Çin, Yaponiya, Avropa İttifaqı dövlətləri, Avstraliya, Kanada, eləcə də Afrika, Asiya və Amerika qitələrini təmsil edən ölkələr həmmüəllif qismində qoşulub. Qətnamənin irəli sürülməsində məqsəd ölkəmizin korrupsiyaya qarşı mübarizə sahəsində mühüm nailiyyətlərindən olan və Azərbaycanın beynəlxalq müstəvidə brendinə çevrilmiş "ASAN xidmət" konsepsiyasına əsaslanan "dövlət xidmətlərinin şəffaf, məsuliyyətli və səmərəli çatdırılması" prinsipinin BMT sistemi daxilində təşviq edilməsidir.

Bütün bunlar təsdiqləyir ki, Azərbaycan BMT-nin strukturlarında fəal təmsil olunur və kifayət qədər aktivlik göstərir. Təşkilatın İnsan Hüquqları Şurasının 60-cı sessiyasında Azərbaycanın bəyanatının səsləndirilməsi də buna nümunədir.

*Nardar BAYRAMLI*

# Avropa İttifaqında problemlər artır...

## Bu səbəbdən Avropa Parlamentində Ursula fon der Lyayenə etimadsızlıq göstərilə bilər

Hazırda Avropa İttifaqı (Aİ) məkanında problemlər artmaqdadır. Problemlər isə bir çox sahələri əhatə edir. Bu baxımdan, Avropa Komissiyasının (AK) sədri Ursula fon der Lyayenin sentyabrın 10-da Avropa Parlamentinə təqdim etdiyi illik hesabat diqqəti cəlb edir. Bir sıra üzv ölkələr də artıq Avropa İttifaqında vəziyyətin hər mənada pisləşdiyi qənaətindədir. Xanım Lyayen isə illik hesabatla bağlı çıxışında beynəlxalq müstəvidə cərəyan edən proseslərə də geniş yer verib.

## Aİ şərq cinahını gücləndirəcək

Avropa Komissiyasının sədri Avropa İttifaqının şərq cinahının müdafiə potensialının gücləndirilməsinə investisiya qoymağa çağırıb. "Heç bir şübhə yoxdur ki, Avropanın şərq cinahı bütün Avropanın təhlükəsizliyini təmin edir. Buna görə də onun dəstəklənməsinə investisiya qoymalıyıq",-deyən xanım Lyayenin sözlərinə görə, regionun bir sıra ölkələrinə səfərdən sonra belə bir yanaşmanın zəruriliyinə əmin olub. "Biz real vaxt rejimində kosmik müşahidəyə investisiya qoymalıyıq ki, qoşunların heç bir hərəkəti diqqətdən qaçmasın. Biz pilotsuz uçuş aparatlarından ibarət divar hörməliyik. Bu, mücərrəd bir ambisiya deyil, etibarlı müdafiənin təməlidir", - deyə AK sədri əlavə edib. O, həmçinin pilotsuz uçuş aparatlarının Polşanın hava məkanını pozmasına görə Rusiyanı günahlandırıb.

Bununla belə, Avropa Komissiyası Qərbdə dondurulmuş Rusiya aktivlərini müsadirə etməyi planlaşdırmır. Lakin bu vəsaitlər Ukraynaya "reparasiya krediti" formasında dəstək üçün istifadə olunacaq. Ursula fon der Lyayen qeyd edib ki, Avropa İttifaqı ölkələri təcili olaraq Rusiyaya məxsus dondurulmuş aktivlər əsasında Ukraynanın hərbi ehtiyaclarını maliyyələşdirmək üçün yeni mexanizm üzərində işləməlidirlər. Onun sözlərinə görə, Ukrayna bu kreditləri yalnız Rusiya öz reparasiya öhdəliklərini yerinə yetirdikdən sonra ödəməyə başlayacaq: "Bu vəsaitlər Ukraynaya indidən dəstək olmaqla yanaşı, həm də ölkənin orta və uzunmüddətli perspektivdə dirçəlişi üçün həyati əhəmiyyət daşıyır".




## AK İsrailə maliyyə dəstəyini dayandıracaq

Ursula fon der Lyayen Avropa İttifaqının Ukraynada pilotsuz uçuş aparatlarının (PUA) istehsalının təşkili üçün 6 milyard avro ayıracağını da elan edib: "Mən elan edə bilərəm ki, Avropa ERA kreditindən 6 milyard avro ayıracaq və Ukrayna ilə pilotsuz uçuş aparatları alyansına qoşulacaq". O əlavə edib ki, Aİ hazırda Rusiyaya qarşı yeni sanksiyalar paketi üzərində işləyir: "Hazırda biz tərəfdaşlarla birgə 19-cu paket üzərində işləyirik. Biz Rusiyanın qazıntı yanacaqlarından imtinanın sürətləndirilməsinə, "kölgə" donanmasına və üçüncü ölkələrə (Rusiyaya sanksiyalardan yayınmağa kömək edən - red.) xüsusi diqqət yetiririk".

Yaxın Şərqdəki vəziyyətə də toxunan xanım Lyayen Avropa Komissiyasının İsrailin Qəzza zolağındakı hərəkətləri ilə əlaqədar bu ölkəyə göstərilən dəstəyi dayandıracağını bəyan edib. O qeyd edib ki, bu addım İsrailin vətəndaş cəmiyyəti ilə əməkdaşlığa və Yad Vashem Holokost Memorialı ilə fəaliyyətə təsir etməyəcək. AK sədri, həmçinin üzv ölkələrə ekstremist nazirlərə və zorakı sakinlərə qarşı sanksiyaların tətbiqinin tövsiyə olunmasının planlaşdırıldığını və Assosiasiya Sazişində yer alan ticarət razılaşmalarının müvəqqəti dayandırılmasının təklif ediləcəyini açıqlayıb. Lyayen bu tədbirlər üçün əksəriyyətin dəstəyinin qazanılmasının çətin olacağını, bəzi ölkələrin bu addımları artıq hesab etdiyini, bəzilərinin isə kifayət qədər olmadığını düşündüyünü deyib. "Lakin Parlament, Şura və Komissiya olaraq məsuliyyətimizi yerinə yetirməliyik", - deyə U.Lyayen bildirib. Lakin o, çıxışında dayandırılacaq maliyyə vəsaitinin məbləği barədə açıqlama verməyib.

AK sədrinin Avropa İttifaqı daxilində sosial-iqtisadi vəziyyətlə bağlı məlumatları isə birmənalı qarşılanmayıb. Çünki Avropa məkanında bu sahədə ciddi problemlərin olması göz önündədir. Bu fonda Avropa Mərkəzi Bankının keçmiş prezidenti, "köhnə dünyanın" ən böyük "iqtisadi ağıl"larından biri adlandırılan Mario Draqinin bir il əvvəl hazırladığı Avropanın rəqabət qabiliyyətinə dair hesabatını xatırlatmaq yerinə düşər. Həyatın bütün sahələrini əhatə edən hesabatda verilən ümumi qiymətləndirməni qısaca qeyd etsək, Avropanın yeni şəraitdə sağ qalması üçün təcili və ciddi tədbirlərə ehtiyac var idi. Draqi son bəyanatında qeyd edib ki, Avropa iqtisadiyyatını canlandırmaq üçün çox az iş görülüb - planın çox hissəsi kağız üzərində qalır. Onun fikrincə, Aİ-nin geosiyasət və beynəlxalq ticarətdəki çəkisi illüziyası ABŞ Prezidenti Donald Trampın Ağ Evə gəlişi ilə darmadağın edilib. Mütəxəssisin sözlərinə görə, uzun illər Aİ 450 milyon istehlakçısı ilə iqtisadi ölçünün geosiyasətdə və beynəlxalq ticarət əlaqələrində mühüm göstərici olduğuna inanırdı. "Bu il bu illüziyanın aradan qaldırıldığı il kimi yadda qalacaq", - deyə Draqi söyləyib. O bildirib ki, blok qlobal çağırışlarla mübarizə üçün "pis hazırlanıb".

## Zəif iqtisadiyyat demokratiyanı da zəiflədəcək?

Aİ "rəqabətqabiliyyətlilik kompası", "Təmiz sənaye sazişi" və s. kimi mühüm təşəbbüslər irəli sürüb, lakin bunlar təkliflərin yalnız 10 faizdən bir qədər çoxunu təşkil edir. Yeni yeddiillik büdcədə sənayeni canlandırmaq üçün 409 milyard avroluq fond təklif edilir, lakin bu vəsait kifayət deyil. Yenidən bölüşdürmə milli hökumətlərin şiddətli müqaviməti ilə qarşılaşır. Çünki bu, ümumi Avropa büdcəsinin çox əhəmiyyətli hissəsi olan kənd təsərrüfatı subsidiyalarının kəsilməsini nəzərdə tutur. Belə nəticəyə gəlmək olar ki, Avropanın iqtisadiyyatı inkişaf etməsə, o, dünyada təsirini və sosial sistemi dəstəkləmək qabiliyyətini itirəcək. Yaşlanan əhali məhsuldarlığı artırmadan adi həyat səviyyəsini saxlaya bilməyəcək. Güclü şirkətlər olmasa, Avropa xarici texnologiya və standartlardan asılı olaraq qalacaq. Zəif iqtisadiyyat həm də demokratiyanın zəifləməsinə gətirib çıxarır.

Bütün bunların fonunda Avropa Parlamentində ifrat sağçılar və solçular Avropa Komissiyasının sədri Ursula fon der Lyayenə qarşı etimadsızlıq votumu məsələsi ilə bağlı rəhbərliyə ayrı-ayrılıqda müraciət hazırlayıblar. Bununla bağlı qərar Ursula fon der Lyayenin AP-da sözügedən çıxışından sonra verilib. Deputatlar, həmçinin debatlar zamanı AK sədrinin tənqidlərə və istefa tələblərinə verdiyi cavablardan narazı qalıblar. Bütün bunlar isə Aİ daxilində ziddiyyətlərin daha da artacağı qənaətini yaradır.

*N.BAYRAMLI*

# Rus dronları Polşa sərhəddini keçsə də...

## NATO gözləmə mövqeyindədir: 4-cü maddə işə düşdü

Xəbər verildiyi kimi, sentyabrın 9-dan 10-na keçən gecə Rusiyaya məxsus pilotsuz təyyarələr kütləvi şəkildə NATO üzvü olan Polşanın hava məkanına daxil olub. Vurğulanır ki, hava təhlükəsinin qarşısını almaq üçün aviasiya işə cəlb edilib. Məlumata görə, gecə təxminən saat 1 radələrində Ukrayna Hərbi Hava Qüvvələri Rusiyanın hücum pilotsuz təyyarələrinin Ukrayna sərhədini keçərək Polşanın hava məkanına keçdiyini açıqlayıb. Rusiya pilotsuz təyyarələri Zamosk şəhəri istiqamətində hərəkət edirmiş. Bu şəhər Ukrayna sərhədindən təxminən 60 kilometr aralıda yerləşir. Həmçinin gecə saatlarında monitorinq kanalları yazıb ki, Rusiyanın daha bir neçə pilotsuz təyyarə qrupu Polşa sərhədini keçə bilərdi - bu prosesdə 10-dan çox "Şahed" iştirak edib. Daha sonra Polşa Silahlı Qüvvələrinin Əməliyyat Komandanlığı ölkənin hava məkanının təhlükəsizliyini təmin etmək üçün hərbi hava qüvvələrinin hərəkətə keçdiyini bildirib. Yerüstü hava hücumundan müdafiə və radar tanıma sistemləri yüksək hazırlıq vəziyyətinə gətirilib. Bundan əlavə, Flightradar24 xidmətinin məlumatları "F-35" döyüş təyyarəsinin də Polşa hava məkanında olduğunu göstərib. Qeyd edək ki, dronlar sərhəddi keçən kimi təhlükə səbəbindən Polşada dörd hava limanının hava məkanı bağlanıb. Əvvəlcə Rzeşova, sonradan isə Lublin, Varşava və Modlin hava limanları bağlanıb. Polşa Silahlı Qüvvələrinin Əməliyyat Komandanlığının məlumatına görə, ən böyük təhlükə altında olan voyevodalıqlar Podlaskie, Mazowieckie və Lublin olub.

Hadisəyə Polşanın Baş naziri Donald Tusk da münasibət bildirib. O, rus PUA-larının ölkə ərazisinə daxil olmasını pisləyərək, bir sıra pilotsuz aparatların Polşa hava qüvvələri tərəfindən vurulduğunu açıqlayıb. Tusk vurğulayıb ki, Polşa bu cür təhlükələrə qarşı NATO müttəfiqləri ilə birlikdə adekvat cavab verməkdə qərarlıdır. Baş nazir NATO rəhbərliyinə məlumat verərək hadisəni "polşalılara qarşı təcavüz aktı" adlandırıb.

### NATO-dan xəbərdarlıq - araşdırılır...

Hadisədən bir neçə gün keçməsinə baxmayaraq, məsələ ətrafında müzakirələr davam etməkdədir. Belə ki, bir çox siyasi dairələrdə baş verənlər Kremlin NATO-ya meydan oxuması kimi dəyərləndirilib. Bu mənada, dünyanın bəzi qlobal analitik mərkəzləri NATO-Rusiya qarşıdurmasının daha da yaxınlaşma anonsu ilə çıxış edib. Amma deyəsən, NATO tamam fərqli mövqedədir. Belə ki, NATO Rusiya pilotsuz təyyarələrinin Polşanın hava məkanına daxil olmasını hücum kimi qiymətləndirməyib. "Reuters" alyansdakı mənbəyə istinadən bildirib ki, ilkin məlumatlara görə, 6-10 rus PUA-sı qəsdən Polşa hava məkanına daxil olub. Mənbə əlavə edib ki, bu, ilk dəfə idi ki, NATO təyyarələri müttəfiqin hava məkanında potensial təhlükəli obyektlərlə qarşılaşıb. Bölgədə yerləşdirilmiş "Patriot" hava hücumundan müdafiə sistemləri radardan istifadə edərək PUA-ları aşkarlayıb, lakin onlar vurmaq üçün istifadə edilməyib. Əməliyyata Polşanın "F-16" qırıcıları, Niderland "F-35"ləri, İtaliyanın AWACS təyyarələri və NATO-nun havada yanacaq dolduran təyyarələri cəlb olunub. Avropa İttifaqının (Aİ) xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallas baş verənləri təsadüfi deyil, qəsdən Avropa hava məkanının pozulması adlandırıb. Polşa hökuməti NATO müqaviləsinin 4-cü maddəsinin işə salınmasını tələb edib. Baş naziri Donald Tusk parlamentdə çıxışı zamanı bu barədə məlumat verib. Xatırladaq ki, 4-cü maddə üzv dövlətlərə Şimal Atlantika Şurasında məsələ qaldırmaq və ölkənin ərazi bütövlüyünə, siyasi müstəqilliyinə və ya təhlükəsizliyinə təhdid olub-olmadığını müəyyənləşdirmək üçün müzakirələr aparmaq imkanı yaradır. "Şübhə yoxdur ki, bu təxribat Polşanın mövqeyindən əvvəlkilərlə müqayisədə daha təhlükəlidir. Bu, sadəcə ukraynalıların müharibəsi deyil, Rusiyanın bütün azad dünyaya elan etdiyi qarşıdurmadır", - deyə Tusk vurğulayıb.

NATO-nun Baş katibi Mark Rutte jurnalistlərə müsahibəsində insidenti son dərəcə təhlükəli adlandırıb. O bildirib ki, NATO Polşanın hava məkanının pilotsuz təyyarələr tərəfindən pozulmasını araşdırır, bunun qəsdən və ya təsadüfi olub-olmadığı hələ aydın deyil. Ruttenin sözlərinə görə, NATO-nun müttəfiqləri Polşanın xahişi ilə NATO Nizamnaməsinin 4-cü maddəsinə uyğun olaraq toplantı keçiriblər. Onun fikrincə, ölkənin ərazi bütövlüyü, siyasi müstəqilliyi və ya təhlükəsizliyi təhdid altında olarsa, alyansın istənilən üzvü digər müttəfiqlərlə məsləhətləşmələrə başlaya bilər. Rutte vurğulayıb ki, NATO-nun hərbi komandanlığı bütün şərq cinahı boyunca çəkindirmə və müdafiə sisteminin fəal şəkildə idarə olunması üzrə fəaliyyətini davam etdirəcək. "Bizim hava hücumundan müdafiəmiz daim tam hazırlıq vəziyyətindədir", -deyə o əlavə edib.

Bu hadisənin NATO-nun əhəmiyyətini və Haaqa Sammitində qəbul edilən yol xəritəsinin vacibliyini bir daha təsdiqlədiyini vurğulayan M.Rutte bildirib: "Biz müdafiəyə daha çox sərmayə qoymalı, müdafiə istehsalını artırmalı, çəkindirmə və müdafiə üçün lazım olan vasitələrə malik olmalı və təhlükəsizliyi bizimki ilə sıx bağlı olan Ukraynanı dəstəkləməkdə davam etməliyik".



### 5-ci maddə niyə işə düşmədi?

Bəzi siyasətçilər isə baş verənlərin 4-cü maddə ilə tövsif olunmasının əleyhinədirlər. Onların fikrincə, baş verənlər daha çox 5-ci maddə ilə cavablandırılmalıdır. Qeyd edək ki, əgər 4-cü maddə kollektiv müdafiəni nəzərdə tutursa, 5-ci maddə daha fərqlidir - 5-ci maddə bir üzv ölkəyə silahlı hücum baş verərsə, bütün NATO ölkələrinin ona hərbi yardıma gəlməsini öhdəlik kimi təsbit edir. NATO-nun 5-ci maddəsi (Kollektiv müdafiə prinsipi) 1949-cu ildə alyans yaradılarkən qəbul edilib və onun ən güclü təminat mexanizmi sayılır. Bu maddəyə görə, bir üzv dövlətə silahlı hücum bütün NATO ölkələrinə hücum hesab olunur. Vurğulayaq ki, bundan öncə də Rusiya dronlarının Polşa sərhədini keçməsi kimi "hava məkanı pozuntusu" və ya təsadüfi zərbələr müşahidə olunub - amma onlar da NATO-nun 5-ci maddəsini işə salmağa gətirib çıxarmayıb. Məsələn 2022-ci ilin noyabrında Polşanın Prjevodov kəndinə düşən raket 2 nəfərin ölümünə səbəb olub. Raketin əvvəlcə Rusiyanın atdığı iddia olunsa da, sonradan Ukraynanın hava hücumundan müdafiə raketi olduğu təsdiqlənib. NATO 5-ci maddəsinin işlədildiyi yeganə nümunə isə 11 sentyabr 2001-ci il terror aktları zamanına təsadüf edir. ABŞ-a hücumdan sonra NATO tarixində ilk və indiyədək yeganə hal kimi 5-ci maddə işə düşdü. NATO ölkələri ABŞ ilə birgə Əfqanıstan əməliyyatlarına qatıldı. Analitiklər 5-ci maddənin işə düşməsi üçün ən vacib şərt kimi hadisənin NATO ərazisinə birbaşa və qəsdli hücum olması ilə ölçürlər - "sərhəd pozuntusu" və ya təsadüfi raket hücum sayılmır.

*P.İSMAYILOV*

# İran və BAEA razılığa gəldi

## Tehran güzəştə gedib?

Yaxın zamanda Beynəlxalq Atom Enerji Agentliyi İrana öz müfəttişlərini göndərəcək. Belə ki, BAEA-nın baş direktoru Rafael Qrossi agentliyin Rəhbərlər Şurasının iclasında çıxışı zamanı bildirib ki, BAEA İranla iyun ayında hücuma məruz qalmış İsfahan, Natanz və Fordo nüvə obyektlərinin yoxlanılması prosedurlarını razılaşdırıb. "Texniki sənəd yoxlamaların aparılması, bildirişlərin ötürülməsi və həyata keçirilməsi prosedurlarının aydın başa düşülməsini təmin edir. Yoxlamalar hücuma məruz qalmış obyektlər də daxil olmaqla İrandakı bütün nüvə obyektləri və qurğularını, həmçinin orada olan nüvə materiallarını əhatə edəcək", - deyə o, çıxışında qeyd edib.



R.Qrossi vurğulayıb ki, BAEA Tehranın Nüvə silahlarının yayılmaması haqqında müqavilənin iştirakçısı olaraq qalmaq istəyini alqışlayır. Baş direktor əlavə edib ki, danışıqlar zamanı İran bir sıra məsələlərlə bağlı narahatlığını ifadə edib - Qrossi bu narahatlıqların dinləməyin, onların həlli yollarını tapmağın agentliyin borcu olduğunu deyib. İran İslam Respublikasının xarici işlər naziri Abbas Əraqçi isə qeyd edib ki, Misirin vasitəçiliyi ilə BMT-nin Atom Enerjisi üzrə Beynəlxalq Agentliyi ilə əldə edilən yeni razılaşma İranın təhlükəsizlik maraqlarını nəzərə alır, nüvə hüquqlarını tanıyır və parlamentin qəbul etdiyi qanuna tam uyğundur. "Sənədin əsas üstünlüyü İranın qanuni narahatlıqlarının tanınması və onların aradan qaldırılmasının tələb olunmasıdır. Yeni razılaşma parlamentin qəbul etdiyi qanuna uyğun olaraq əməkdaşlığın İranın Atom Enerji Təşkilatının təsdiqi ilə həyata keçirilməsini nəzərdə tutur",- A.Əraqçi qeyd edib.

ABŞ və İsrailin hücumlarından sonra İran hakimiyyəti bəyan edirdi ki, Tehran BAEA ilə imzalanan müqavilədən çıxacaq və agentliyin müfəttişlərini ölkəyə buraxmayacaq. Amma BAEA ilə keçirilən son danışıqlarda İran agentliyin müfəttişlərini ölkədəki bütün nüvə obyektlərində monitorinq aparmağa razılıq verib. Görünür, Tehran BAEA-ya bu məsələdə güzəştə gedib.

Məsələ ilə bağlı Yaxın Şərq üzrə ekspert Vüqar Zifəroğlu "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, hazırkı vəziyyətdə İran hakimiyyəti bir neçə faktora görə BAEA ilə razılaşmaya gedib. "Bunlardan ən əsası beynəlxalq təzyiq və sanksiyaların yenidən tətbiq edilməsi riskidir. Avropa ölkələri - xüsusilə E3 (Fransa, Almaniya, Böyük Britaniya) İrandan BAEA-nın nüvə obyektlərində monitorinqinin bərpasını tələb edirdilər və bununla yanaşı, Tehrana xəbərdarlıq edirdilər ki, buna imkan verilməyəcəyi təqdirdə BMT-nin əvvəlki sanksiyaları yenidən qüvvəyə minəcək. İran parlamenti də bir qanun qəbul etmişdi ki, BAEA ilə hər hansı əməkdaşlıq Seym və İranın Ali Təhlükəsizlik Şurasının razılığı ilə həyata keçməlidir. Bu, İranın xarici institutlar üzərində daha çox nəzarət imkanı əldə etməsinə yönəlik bir addımdır. Razılaşma, görünür, qanunvericilik çərçivəni tanıyan bir formata keçidi ehtiva edir. BAEA ilə razılaşma əldə edildikdən sonra İran rəsmiləri bildirirlər ki, yeni müqavilə onların nüvə texnologiyası haqqını, qanunvericiliyə uyğunluğunu və İranın Ali Təhlükəsizlik Şurasının təsdiqini nəzərə alır. İran hazırkı şəraitdə BAEA ilə razılığa getməklə həm beynəlxalq təzyiqi yumşaltmaq, həm nüvə obyektlərindəki vəziyyəti gizliliyə buraxmamaq, həm də öz qanuni hüquqlarını qorumaq istəyir".

V.Zifəroğlu vurğulayıb ki, İran ilə BAEA arasında danışıqların növbəti raundu planlaşdırılır. Onun sözlərinə görə, gələcək danışıqlarda yeni məsələlər müzakirə olunacaq. İranın zənginləşdirilmiş uran ehtiyatı, hədəfə alınmış obyektlərdə olan materiallar, obyektlərin vəziyyəti və dağıntıların səviyyəsi ilə bağlı məlumatların verilməsi müzakirə mövzularıdır: "İran vurğulayıb ki, hər hansı əməkdaşlıqda onun obyektlərinə xarici hücum və ya hər hansı "düşmənlik" olmamalıdır. Razılaşmanın davamı üçün belə halların olmaması şərt kimi göstərilir". Ekspert əlavə edib ki, razılaşma Avropa tərəfləri, BAEA və İran arasında vasitəçi rollarını gücləndirən ölkələrin iştirakı ilə baş tutub. "Daha geniş diplomatik danışıqların başlaması gözlənilir ki, bunlara ABŞ-la dolayı və ya bilavasitə əlaqələr, Avropa ilə danışıqlar və NPT çərçivəsindəki öhdəliklər daxil ola bilər".

*Yunis ABDULLAYEV*

## Sui-qəsdin arxasında hansı səbəb dayanır?



# Qatı sağçı fəal Çarli Kirk öldürüldü

Amerikalı siyasi fəal və Prezident Donald Trampın qatı tərəfdarı Çarli Kirk sui-qəsd nəticəsində öldürülüb. O, Yuta Universitetində çıxış edərkən boyun nahiyəsinə atəş açılıb. Atəş nəticəsində tədbir yarıda kəsilib, Kirk mühafizəçilər tərəfindən ərazidən aparılıb. Siyasi fəal xəstəxanaya yerləşdirilsə də, onun həyatını xilas etmək mümkün olmayıb. Qeyd edək ki, Çarli Kirk "Turning Point USA" adlı sağ yönümlü tələbə təşkilatının qurucusudur və ABŞ-da gənclər arasında mühafizəkarlığın təbliğatçısıdır.

Amerika ictimaiyyətində qatı mühafizəkar siyasi fəal, yazar və media nümayəndəsi kimi tanınan Çarli Kirk 1993-cü ildə ABŞ-ın Çikaqo ştatında anadan olub. Qeyd edək ki, Ç.Kirkin siyasətə marağı kollecdə tələbə olarkən başlayıb - o, 16 və ya 17 yaşında ABŞ Senatına respublikaçı namizəd Mark Kirkin seçki kampaniyasının təşkilatçılarından biri olub. Ç.Kirk universitetə qəbul olunsa da, ali təhsilini davam etdirməyib və 18 yaşından etibarən aktiv siyasi fəaliyyətə cəlb olub - o, 2012-ci ildə "Turning Point USA" (TPUSA) adlı sağ yönümlü tələbə təşkilatının əsasını qoyub. Bu təşkilat ABŞ universitetlərində və kolleclərində gənclər arasında mühafizəkar ideologiyanı və azad bazar iqtisadiyyatı prinsiplərini təbliğ edir. ABŞ-da geniş siyasi təsir imkanlara malik olan təşkilat hesab olunur. ABŞ KİV-lərinin məlumatına görə, Kirkin TPUSA təşkilatı mühafizəkarlığı dəstəkləyən milyarderlər tərəfindən maliyyələşdirilir. Eyni zamanda Kirk mütəmadi olaraq "Fox News", o cümlədən mühafizəkarlığı təbliğ edən kanallarda çıxış edirdi. Çarli Kirkin özünün "The Charlie Kirk Show" adlı məşhur podkastı və radio proqramı da olub. Bu proqram çərçivəsində Ç.Kirk əsasən ABŞ siyasəti, mədəni, dini və ailə dəyərlərinin təbliğatı ilə bağlı mövzulardan danışırdı. Ç.Kirk Donald Trampın güclü tərəfdarlarından biri olub - o, ABŞ-da solçuluğu, liberal ideologiyanı kəskin tənqid edirdi. Kirkin əleyhdarları onu radikal irqçi və dindar olmaqda ittiham edirdilər. "Vaşinqton Post" qəzeti Ç.Kirki ultra-sağ cəbhənin ən öndə gedən simalardan biri hesab edirdi.

Ç.Kirk qatı İsrail tərəfdarı idi - o, çıxışlarında dəfələrlə hazırkı Fələstin torpaqlarının Allah tərəfindən yəhudilərə verildiyini və İsrailin mövcudluğunun və müstəqilliyinin qorunması və təminatında ABŞ-ın xristianlıq qarşısında öhdəlik daşıdığını bəyan edirdi. Mühafizəkar fəal, həmçinin İsrailin Qəzzada hərbi əməliyyatlar aparmaq haqqı olduğunu qeyd edirdi. Ç.Kirkin Rusiyaya da münasibəti çox müsbət idi və Kremlin rəhbəri Vladimir Putinin siyasi mövqeyini dəstəkləyirdi. Belə demək mümkünsə, Kirk qatı Putin sevdalısı idi. O, Ukrayna Prezidenti Volodimir Zelenskini qeyri-legitim lider kimi görürdü - bir neçə çıxışında Krım daxil olmaqla Cənub-Şərqi Ukrayna ərazilərini Rusiyanın tarixi torpaqları, eləcə də Ukraynanın "süni" dövlət olduğunu qeyd etmişdi. ABŞ-Rusiya münasibətlərinə dair çıxışlarında Ç.Kirk iki nəhəng ölkə arasında diplomatik-siyasi, iqtisadi-ticari və hərbi-təhlükəsizlik sahələrində ikitərəfli əlaqələrin bərqərar olmasının zəruriliyini vurğulayıb.

Artıq Çarli Kirkin öldürülməsi ilə bağlı müəyyən iddialar dolaşmaqdadır. Bəzi iddialara görə, Kirk öz siyasi baxışlarına görə əleyhdarları tərəfindən öldürülüb. Bəziləri isə bu sui-qəsdin ölkə daxilində ciddi çaxnaşma yaratmaq üçün məqsədyönlü şəkildə təşkil edildiyini hesab edir. Amma yayılan iddialara baxmayaraq, Kirkin öldürülməsinin səbəbləri tam və dəqiq sübuta yetirilməyib - bu, uzun zaman apara bilər. Xüsusilə qeyd edək ki, Kirkə sui-qəsd təşkil etməkdə şübhəli bilinərək saxlanılan şəxs sərbəst buraxılıb.

Sui-qəsddən dərhal sonra Prezident Donald Tramp Çarli Kirki gülləyən şəxs üçün dərhal və əfvsiz ölüm hökmü nəzərdə tutan əmr imzalayıb. Ağ Evin rəhbəri öz "Truth Social" şəbəkə hesabında hadisədən dərin kədərləndiyini qeyd edib - "Böyük və hətta əfsanəvi Çarli Kirk vəfat edib. ABŞ-da gənclərin ürəyini və düşüncələrini Çarli qədər heç kim anlamamışdı. O, hər kəs tərəfindən sevilir və hörmət edilirdi, xüsusilə, mənim tərəfimdən və indi artıq bizimlə deyil. Melanya və mənim başsağlığımız onun gözəl həyat yoldaşı Erika və ailəsinə çatır. Çarli, səni sevirik!" Hadisənin Amerikanı qaranlığa qərq etdiyini bildirən Tramp bu kimi zorakılıq hallarına qarşı mübarizə aparacağlarını deyib: "Mənim administrasiyam bu və digər siyasi zorakılıqlarda əli olan hər bir şəxsi, o cümlədən bu əməlləri maliyyələşdirən və dəstəkləyən təşkilatları, eləcə də ölkəmizdə nizam-intizamı təmin edən hakimlərə, hüquq-mühafizə orqanlarının əməkdaşlarına və digər şəxslərə qarşı çıxanları tapacaq", - deyə Tramp bildirib.

*Yunis ABDULLAYEV*



# MÜƏLLİMLƏR UNUDULMUR

Hamımız üçün əziz, doğma, müqəddəs sayılan bir peşə sahibi var - məkan və zaman hüdudsuzluğuna malik bu uca peşənin sahibi müəllimdir. İnsanlar bütün zamanlarda "müəllim" sözünü ağır batmanla, böyük hörmət və izzətlə dəyərləndirmişlər. O, həmişə cəmiyyətin dadı-tamı, mayası, mayakı olmuşdur. Uşaq ayağı yer tutub addım atandan, dili söz tutub danışan andan müəllim sözünün istisinə isinmiş, müqəddəsliyinə, ucalığına tapınmışdır.

Ömrünün 40 ildən çoxunu müəllimlik sənətinə həsr etmiş, Qərbi Azərbaycanın tanınmış fədakar müəllimlərindən biri də Mehri Eyvazova idi. 40 il müəllim! Bu ifadə nələr demir?! Mehri müəllim öz sənəti ilə nə qədər zehnlərə işıq saçmış, qəlblərə sevinc və fərəh bəxş etmişdir. O müəllim işlədiyi dövrdə nə qədər insan qəlbində öz heykəlini yaratmış, nə qədər canlı əsərlərin müəllifi olmuşdur.

Yaşasaydı, bu il sentyabr ayının 15-də 100 yaşı tamam olacaqdı. 100 yaşlı bir pedaqoqun maraqlı bir ömür kitabını vərəqləmək, bu kitabın məna dolu bir neçə səhifəsini oxuculara təqdim etməyi özümə borc bildim.

Mehri müəllim 1925-ci ildə Allahverdi rayonunun Böyük Ayrım kəndində nəcabətli, ziyalı bir ailədə anadan olub. Mehri xanımın atası Adil Eyvazov bölgənin böyük nüfuza malik ağsaqqallarından, maarifçilərindən biri olmuşdur. Ümumiyyətlə, Eyvazovlar soyunun nümayəndələri təkcə Allahverdi rayonunda deyil, Qərbi Azərbaycanda soydaşlarımızın ictimai, mədəni quruculuq prosesində yaxından iştirak etmiş, öz layiqli töhfələrini vermislər. Mehri müəllim haqqında ilk dəfə onun həyat yoldaşı, Qərbi Azərbaycanın tanınmış maarif və mətbuat xadimlərindən olan Tapdıq Novruzov haqqında tərtib etdiyim "Yaşanmış ömür" adlı kitabdakı yazılardan tanış oldum. Tapdıq müəllimin romantik gənclik dünyasının "işıqları" kimi xatırladığı saf və nəcib təbiətli insanlar içində adını hər zaman riqqətlə çəkdiyi bir sima gördüm. Mehri xanım! Tapdıq müəllimin mənəvi yaddaşında əbədi iz buraxan və onun Mehri xanımla olan hərarətli xatirələri eyni vaxtda həm də bir hekayə təsiri bağışlayır. Mehri müəllimin həyatı, fəaliyyəti, keçdiyi şərəfli ömür yolu onun doğma Böyük Ayrım kəndindən başlayır.

Mehri xanım müəllimlik fəaliyyətinə 1945-ci il sentyabrın 1-də Böyük Ayrım kənd məktəbində başlamışdır. Bununla da onun həyatında yeni bir dövr başlayır, hər il ömür kitabına bir hadisə ilə yazılır, naxışlanır. Mehri müəllim ömrünü yaşamaq üçün deyil, yaratmaq üçün yaşamışdır. Çünki yaratmaq üçün yaşayanda ömür daha mənalı, illər daha uğurlu olur.

Ali təhsil almaq arzusu isə bir an da olsun belə Mehri xanımı rahat buraxmır. Məhz ona görə də Mehri xanım 1945-ci ildə İrəvan Dövlət Pedaqoji İnstitutuna daxil olur. Amma 1948-1953-cü illərdə Qərbi Azərbaycandan soydaşlarımızın köçürülməsi zamanı İrəvan Pedaqoji İnstitutunun Azərbaycan şöbəsi də Bakıya köçürüldüyündən Mehri xanım ali təhsilini başa vura bilmir. O, ali təhsilini Qazax Müəllimlər İnstitutunda davam etdirir və 1953-cü ildə oranı bitirir.

Dövrün sayılıb-seçilən qadınlarından olan Mehri xanım sanki həyata müəllim olmaq üçün gəlmişdi. İrəvan Pedaqoji və Qazax Müəllimlər İnstitutunda Mehri xanıma dərs demiş müəllimlərin - Fərhad Fərhadov, Əşrəf Bayramov, İsmayıl Şükürzadə, Tacirə Bağırova kimi görkəmli pedaqoqların gözəl ənənələrini Böyük Ayrım kənd məktəbində davam etdirirdi. Bir neçə nəsil Allahverdi rayon azərbaycanlılarına ilk dəfə qələm tutmağı, "ana", "Vətən" sözlərini yazmağı məhz Mehri müəllim öyrətmişdir. Nəcabətli bir ailədə boya-başa çatmış Mehri müəllim yüksək mədəniyyəti, hərtərəfli biliyi, tələbkarlığı ilə hamının hörmətini qazanmışdı. Məktəbin bütün müəllim kollektivi - ahılı da, cahalı da onu "müəllim" deyə çağırırdı. İlk baxışda adama elə gəlir ki, hörmət əlaməti olaraq hamı ona "müəllim" deyir. Bəli, bu, belədir. Lakin bu sözdə həm də həqiqi məna vardır. Mehri müəllim məktəbin müəllimlərinin, hətta qonşu kəndlərdə işləyən bir çox müəllimlərin müəllimi olmuşdur. Mehri müəllim şagirdlərə fərdi yanaşmağı bacarır, hər uşağın xarakterini, ailə vəziyyətini öyrənirdi. Onun məktəb xatirələrindən bir sətrə nəzər salaq: "Dərsi bilməyən şagirdlərdən eləsi vardır ki, iti zehnlidir, ancaq onun üzərində lazımi nəzarət olmadığı üçün məktəbə hazır gəlmir. Elə şagird də var ki, məzmunu çətin mənimsəyir. Mən dərsdə onları mütləq nəzərə alaraq şagirdlərlə əlavə məşğələ keçirdim". Bunun nəticəsi olaraq tanınmış müəllimin dərs dediyi siniflərdə mənimsəmə həmişə yüz faiz olmuşdur.

Mehri müəllimin pedaqoji fəaliyyətə sönməz həvəsi onu şagirdlərinə sirayətedici təsir göstərməyə bilməzdi. Təsadüfi deyildir ki, öz işinə fəal və məsuliyyətli münasibəti, dəqiqliyi öz şagirdlərinə tələbkar və qayğıkeşliyi onu tanıyan hər bir kəsə bəllidir. Həmin keyfiyyətlər Mehri müəllimi yalnız bir pedaqoq kimi xarakterizə etmir, həm də onun şəxsi, insani keyfiyyətlərinin təzahürüdür.

İnsan üçün ömrün 40 ilini gənc nəslin təlim-tərbiyəsi işinə həsr etməkdən şərəfli nə ola bilər?! O, özünün bu şərəfli və fədakar əməyi ilə fəxr edə bilər. Təsadüfi deyil ki, Mehri müəllimin fədakar əməyi müxtəlif təltiflərlə qiymətləndirilmişdir. O, 1957-ci ildə "Əməkdə fərqlənməyə görə" medalı ilə təltif edilmişdir. Mehri müəllim 1964-cü ildən etibarən pedaqoji fəaliyyətini Bakı şəhərindəki 1 nömrəli riyaziyyat və sonra isə 8 nömrəli musiqi təmayüllü internat məktəblərində davam etdirmişdir. Bugünlərdə - sentyabr ayının 15-də Mehri müəllimin 100 illik yubileyi tamam olur. Öz pedaqoji fəaliyyəti ilə qəlblərə işıq, zehnlərə ziya saçan fədakar insanın mənalı ömür yolu bu gün də minnətdarlıqla xatırlanır.

Doğma torpaqlarımıza qayıtmaq Mehri müəllimin ən böyük arzusu idi. Onun bu arzularının gerçəkləşməsinə də çox az qalıb. Biz buna ürəkdən inanırıq.



*Cəlal Allahverdiyev,*
*filologiya üzrə fəlsəfə doktoru,*
*dosent*

# 246 növ pendirin olduğu ölkə defoltun bir addımlığında...

## Fransada hökumət böhranı böyüyür - Lekornyenin "çıxış yolları"

Bugünlərdə Fransa açıq hökumət böhranı yaşamaqdadır. Parlamentdə azlıq təşkil edən qrupun rəhbərinə çevrilmiş prezident Emmanuel Makron növbəti dəfə çıxılmaz vəziyyətlə üzləşib. Makron hakimiyyətinin 7-ci baş naziri olan Fransua Bayrunun istefası ölkədəki iflic durumu rəsmiləşdirdi. Büdcə kəsiri ÜDM-in 5 faizini keçən Fransanın çevik və effektiv idarəetməyə ciddi ehtiyacı var.

### Bayru Fransanı "nə günə" qoydu...

Qeyd edək ki, əvvəlki baş nazir Bayru özünü ciddi maliyyə intizamının tərəfdarı elan etmişdi - onun hazırladığı 2026-cı il büdcəsi əsasən işçi və orta təbəqənin hesabına 40 milyard avrodan çox qənaət etməyi hədəfləyirdi. Amma həm sol, həm də ifrat sağçı müxalifət partiyaları onun bu hesablamalarını qəbul etmədi. Hər kəs düşünürdü ki, birinci mərhələdə Fransadakı büdcə böhranının qarşısını almaq üçün fevral ayında Milli Assambleya tərəfindən təsdiqlənən "Zucman vergisi" (super zənginlərə vergi) prinsipinə əl atılacaq. Amma Bayrunun və kabinetinin bu sənədin qarşısında "divara" çevrilməsi, nəticədə, siyasi və iqtisadi böhranın "qapısını" döydü. Artıq "reanimasiya" vəziyyətinə düşmüş Fransa büdcə problemi ilə bağlı Bayrunun "resepti" isə daha böyük ağrılara yol açır:

- sosial müavinətlərin dondurulması;
- dövlət qulluqçularının sayının azaldılması (rəsmi təqaüdə çıxarılır, vəzifə maaşı kəsilir)
- iki rəsmi bayramın ləğvi.

Məqsəd 2029-cu ilə qədər kəsiri Aİ-nin tələb etdiyi kimi ÜDM-in 3 faizdən aşağıya endirmək idi. Amma bu "resept" xalq tərəfindən qəbul edilmədi. Aylardır ki, sorğular da vətəndaşların əksəriyyətinin Bayrunun istefasını tələb etdiyini açıq-aydın ortaya qoyurdu. Fransua Bayru 2024-cü ilin əvvəlindən bu yana Fransada davam edən siyasi böhranı dərinləşdirərək istefa verən dördüncü baş nazir oldu. İstefanın verilmə situasiyası isə təxminən belədir: ölkənin dövlət borcu 3,3 trilyon avroya çatır, büdcə kəsiri ÜDM-in 5,8 faizini keçir - yəni Aİ standartlarından az qala iki dəfə yüksəkdir. 74 yaşlı Bayru bu problemlərin nəinki həll yolunu müəyyənləşdirə bilmədi, əksinə, problemi daha çıxılmaz dalana sürüklədi. Ölkənin dövlət borcu 3,3 trilyon avronu (ÜDM-in 114 faizi) ötüb ki, bu da avrozonada Yunanıstan və İtaliyadan sonra üçüncü ən yüksək göstəricidir. BVF-nin hesablamalarına görə, təcili tədbirlər görülməsə, Fransanın borcu 2030-cu ilə qədər ÜDM-in 130 faizinə çata bilər. "Borca xidmət" büdcə üçün getdikcə bahalaşır: borc ödənişləri ildə 50 milyard avroya qədər artıb və onilliyin sonunda 100 milyard avroya çatacağı gözlənilir ki, bu da təhsil xərclərini üstələyir və büdcənin ikinci ən böyük istiqamətinə çevrilir. Ekspertlər xəbərdarlıq edirlər ki, bu vəziyyətdə Fransa tezliklə BVF və ya Avropa Sabitlik Mexanizminin köməyinə ehtiyac duya bilər ki, bu da daha sərt və ağrılı struktur islahatları tələb edəcək.

### Siyasi böhranın davamı...

Böhranın siyasi səbəblərinə gəldikdə isə, mütəxəssislər yaşananları 2024-cü ilin yayında keçirilən parlament seçkilərinin birbaşa nəticəsi adlandırır. Makronun partiyasının Avropa Parlamenti seçkilərindəki məğlubiyyətindən sonra başlanan siyasi böhran bu gün özünün kuliminasiya mərhələsini yaşayır. Solçu "Milli Birlik" blokunun qalibiyyəti Makronu öz ölkəsinin parlamentdə də azlığa çevirdi. Bu, isə nəticədə Makronun quracağı hər hansı bir hökumətin yalnız müxalifət bloklarından birinin daimi dəstəyi ilə fəaliyyət göstərə biləcəyi həqiqətini ortaya qoydu.



### Əsas tapşırıqlar...

Bu arada Fransanın yeni Baş naziri Sebastian Lekornye sentyabrın 10-da günorta saatlarında keçmiş Baş nazir Fransua Bayru ilə bağlı qapılar arxasında görüş keçirib. Görüşdən sonra hər iki siyasətçi qısa çıxışlarla ictimaiyyət qarşısına çıxıb. Ölkədə genişmiqyaslı "Hər şeyi bloklayaq" etiraz aksiyalarının fonunda Matinyon sarayında Baş nazir postunun təslim-təhvili olub. Silahlı qüvvələr naziri vəzifəsindən istefa verən Sebastian Lekornye, Fransua Bayru ilə keçirdiyi qapalı görüşdən sonra rəsmi olaraq yeni Baş nazir olub.

Lekornye çıxışında vurğulayıb ki, həm forma, həm də məzmun baxımından dəyişikliklər qaçılmazdır. "Reuters", "Financial Times" və digər mənbələr Sebastian Lekornyenin ölkədəki iqtisadi-siyasi böhrandan çıxışı təmin etmək üçün hansı istiqamətlərdə tədbirlər görməyi planlaşdırdığı barədə mümkün strateji addımların xülasəsi haqda məlumat yayıb.

Lekornye hökuməti qarşısında duran əsas tapşırıqlar budur:

- Fransanın maliyyə sabitliyini bərpa etmək üçün büdcə platformasını yenidən qurmaq, xərcləri kəsmək,
- vergiləri ədalətli bölüşdürmək və parlamentdə kompromis mühiti yaratmaq.

Lakin bu planların uğuru, iqtisadi artım sürətindən, siyasi müxalifətin reaksiyasından və ictimaiyyətin məzənnətli qərarlara reaksiyasından asılı olacaq. Qeyd edək ki, yeni kabinetin bəzi təklifləri barədə də məlumatlar yayılıb. Bildirilir ki, 2026-cı il büdcəsində kəsirləri azaltmaq, defisit hədəfini aşağı salmaq üçün bəzi sərt tədbirlər gözlənilir. Vergi və gəlir artırılması üçün isə "Zənginlər vergisi" tətbiqinin, vergi boşluqlarının azaldılmasının planlandığı deyilir.

Gələcəkdə prioritet ola biləcək istiqamətlərə gəlincə isə:

- Avropa İttifaqı norma və tələblərinə uyğunluq - Üzv ölkə kimi Fransa 3 faiz büdcə kəsiri hədəfinə geri dönməyə çalışacaq, ən azı 2029-cu ildə bu səviyyəyə çatmaq məqsədi ilə .
- İnvestisiyaların təşviqi, iqtisadi artımın stimullaşdırılması - Məhdud xərclərlə yanaşı, dövlət siyasəti sərmayəyönümlü sahələrə yönəldilə bilər: texnologiya, yaşıl enerji, siyasətlərin sadələşdirilməsi və tənzimləyici yükün azaldılması.
- Sosial narazılığın idarə olunması - Kütləvi aksiyalar, etirazlar son vaxtlar artıb; Lekornye hökuməti sosial ədalət və "Paylaşma" mesajlarını gücləndirməklə legitimliyi qoruyub saxlamaq istəyəcək.

### Paris "partlayacaqmı"?

Hazırda ən aktual sual Fransanı yaxın gələcəkdə nə gözləməsidir. Makronun hazırkı seçimindən asılı olmayaraq, ölkə ciddi problemlərlə üzləşəcək:

- Büdcə qeyri-müəyyənliyi - 2026-cı il büdcəsi qəbul olunana qədər dövlətin maliyyələşdirilməsi hər hansı uzunmüddətli planlaşdırma və islahatları ləngidən müvəqqəti sxemlər üzrə həyata keçiriləcək;
- Sosial etiraz təhlükəsi - həmkarlar ittifaqları artıq sentyabr ayının ikinci ongünlüyü üçün "Hər şeyi bloklayın" şüarı ilə ümumi tətil və etiraz aksiyaları elan ediblər. Yeni hökumətin qənaət kursunu davam etdirmək cəhdləri küçələrdə sərt müqavimətlə qarşılaşacaq;
- Maliyyə bazarlarında təzyiq - sentyabrın 12-də Fitch Fransanın kredit reytinqini (hazırda mənfi proqnozla "AA-") yeniləyəcək. Mümkün azalma daha bahalı borclanmaya və borc probleminin pisləşməsinə səbəb ola bilər;
- Ekstremal qüvvələrin artan populyarlığı - hazırkı böhran Marin Le Pen və Jordan Bardellanın "əlinə işləyir". Sorğular göstərir ki, Milli Birlik Partiyasının sədri, keçmiş "tik-toker" Bardella 30 faizdən yuxarı reytinqlə ən populyar siyasətçidir, Makrona inam isə rekord həddə - 15 faizə enib.

Amma müxalifətin "istefa" şüarları güclənsə də, Makron vəzifəsini yarımçıq tərk etmək niyyətində olmadığını bildirir. Qeyd edək ki, Beşinci Respublika tarixində yalnız bir prezident vaxtından əvvəl istefa verib - Şarl de Qoll, 1969-cu ildə. O vaxt prezidentin məşhur deyimi trend olmuşdu: Şarl de Qoll demişdi ki, "246 növ pendirin olduğu bir ölkəni idarə etmək mümkün deyil". Ekspertlər razılaşır ki, Makron öz postunda qalmaq üçün yeni Baş nazir Sebastian Lekornyeni "qurban" seçib.

***Pərviz SADAYOĞLU***

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**



# “Böyük Qayıdış”ın növbəti addımları...







*Yeganə BAYRAMOVA*

## Bir gündə üç ünvan!

Azərbaycanın tarixi müxtəlif acılı, həmçinin şərəfli dövrlərdən ibarətdir. Bu dövrlərin ən ağrılı məqamlarından biri də 1990-cı illərin əvvəllərində başlayan Ermənistan-Azərbaycan münaqişəsinin nəticələridir. Bir çox kəndlər və şəhərlər dağıldı, on minlərlə insan öz yurdlarından didərgin düşdü...

**Yaddaşımızda silinməz izlər buraxan günlər**

1992-ci ilin fevral ayı Xocalı şəhəri və onun ətraf kəndləri üçün tarixdəki ən qara günlərdən biri oldu. Qarabağda yerləşən bu şəhər erməni silahlı qüvvələri tərəfindən işğal olundu və çoxsaylı dinc sakin faciəvi şəkildə həyatını itirdi. Amma bununla yanaşı Xocalıdan və Xocavənddən köç edən insanların yola çıxması da həmin illərin ən ağır anlarından biri idi.

Xocavənd hər şeydən əvvəl cəbhə xəttinə yaxın bir bölgə idi. Bu səbəbdən daimi təhdid altında yaşayan əhalinin köç etməsi bir növ qaçılmaz idi. İnsanlar özlərini qorumaq, təhlükəsizliyə nail olmaq üçün evlərini tərk etməyə məcbur oldular. Bu hadisə yalnız fiziki deyil, həm də emosional cəhətdən ağır idi. Doğmalarını, ailələrini və sevdiklərini itirən insanları yola salan bu köç, xalqımızın yaddaşında silinməz izlər buraxdı.

**Tarixə qayıdışın təzahürü...**

Ancaq təxminən, 30 ildən sonra Qarabağa qayıdış başladı. Bu, yalnız torpaqların geri alınması deyil, həm də bir millətin gücünün, dirçəlişinin və iradəsinin simvolu idi. 1990-cı illərdə köç edən və vətənini tərk edən insanlar, bu dəfə qayıtdıqları torpaqlarda yeni həyat qurmaq, keçmişin acılarını və travmalarını geridə qoymaq, yeni bir başlanğıc yaratmaq istəyirlər. Artıq onlar yalnız torpaqlarına deyil, həm də öz kimliklərinə, milli birliklərinə qayıdırdılar. 30 il əvvəl yaşadıqları ayrılıq, bu dəfə birləşmə və qurtuluşa çevrildi... Bu, həm də tarixə qayıdışın, gücümüzün təzahürüdür.

Xocalı soyqırımı və Xocavəndin işğalı Azərbaycanın tarixində silinməz izlər buraxıb. Xocalı və Xocavənd sakinləri müharibənin dəhşətini yaşasalar da, onların ruhu həm də gələcək nəsillərə ötürülən bir güc və iradə formasıdır.

**Sos kəndinə ilk köç...**

Dünən Xocavənd rayonunun Sos kəndinə ilk köç karvanı yola salınıb. İlk mərhələdə Sos kəndinə 10 ailə - 45 nəfər köçürülüb.

**Daha iki ünvan...**

Ötən gün həmçinin Xocalı rayonunun Şuşakənd kəndinə 15 ailə - 59 nəfər, Xocavənd rayonunun Qırmızı Bazar qəsəbəsinə isə 10 ailə - 39 nəfər yola salınıb. Köç edənlər respublikanın müxtəlif yerlərində, əsasən yataqxanalarda, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdir.

Xocavənd və Xocalıya, həmçinin işğaldan azad olunan digər ərazilərə köç karvanlarının yola salınması keçmiş köçkünlərimiz üçün keçmişi anlamaq və gələcəkdə daha güclü olmaq adına mühüm bir anı təşkil edir. Beləliklə, müharibə illərinin acı xatirələrini unudub, xalqın güclü iradəsi ilə inşa edilən bir gələcəyin başlanğıcını görürük. Bu, yalnız Azərbaycanın deyil, bütün bir millətin qələbəsi, dirçəlişi və vətənə olan sevgi ilə bağlıdır.

# Fikir və sözün azadlıqdakı yeri

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə “Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi”nin maliyyə dəstəyi ilə “Fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi” istiqaməti üzrə hazırlanmışdır**

## Sözlər güclüdür, çünki cəmiyyəti dəyişdirə bilər...

Sözün gücü öz varlığını ifadə etməyə çalışan insanların mübarizəsi zamanı ortaya çıxır. Hər bir dövrün, hər bir mübarizənin öz “sözünü” tapdığı anlar var. Antik yunan fəlsəfəsindən tutmuş, Fransız İnqilabı və Sovet İttifaqının dağılmasına qədər hər bir böyük dəyişiklik, sözün gücündən qaynaqlanırdı. Çünki söz yalnız bir ifadə vasitəsi deyil, eyni zamanda bir alət, bir silahdır. Bu silahın gücü isə onun necə istifadə edildiyi ilə ölçülür.

Tarix göstərir ki, söz azadlığı tez-tez qorxudan, gücdən və nəzarətdən qaynaqlanan sarsıntılarla qarşılaşıb. Kütləvi şəkildə təzyiq altında olan cəmiyyətlərdə söz azadlığı ya məhdudlaşdırılıb, ya da senzura ilə qarşılaşıb. Bəzi ölkələrdə güc sahibləri əhali üzərində nəzarət qurmaq məqsədilə insanları susdurmağa çalışıb, onların düşüncə və ifadə azadlıqlarını yox edib.

Lakin insanlar nə zaman fikirlərini sərbəst ifadə edə bilərlərsə, müxtəlif baxış bucaqları və həqiqətlər bir araya gəlir. Fikir və söz azadlığı təkcə fərdlərin öz düşüncələrini açıqca bildirmələrini təmin etmir, həm də hər kəsin öz fikrini və öz həqiqətini axtarmasına imkan verir. Bu, cəmiyyətin müxtəlif təbəqələrinin bir araya gəlməsinə, ideyaların qarşılıqlı müzakirə edilməsinə və ən əsası, səhv fikirlərin, yanlış məlumatların ifşa olunmasına gətirib çıxarır.

## Fikir və söz azadlığının sərhədləri

Fikir və söz azadlığı ilə bağlı ən çox mübahisə edilən mövzulardan biri onun sərhədləridir. Bəzən insanlar söz və ifadə azadlığından istifadə edərək başqalarının hüquqlarını pozurlar. Bəzi ölkələrdə bu səbəblə məhdudlaşdırmalar tətbiq olunur. Məsələn, nifrət nitqi, şiddətə çağıran ifadələr və ya insan haqlarını pozan bəyanatlar bəzən söz azadlığının sərhədlərini təyin edən faktorlardır.

Bu sərhədlərin tərtib edilməsi isə çox incə bir məsələdir. Çünki bir tərəfdən fikir və söz azadlığını tam olaraq təmin etmək cəmiyyətdəki müxtəlif perspektivlərin hörmətlə qarşılanmasını təmin edir, digər tərəfdən isə bəzi ifadələr cəmiyyətin təhlükəsizliyini və harmoniya şəraitini təhdid edə bilər. Burada önəmli olan tənqid edilən və sərhəd qoyulan ifadələrin nəyə əsaslandığı və cəmiyyətin mənfəəti üçün nə qədər zərərli olduğudur.



## Söz azadlığının cəmiyyətə təsiri

Fikir və söz azadlığı yalnız hər bir fərdin şəxsi hüququ deyil, həm də cəmiyyətin kollektiv yaddaşını, irsini və inkişafını formalaşdıran mühüm bir faktordur. Bu azadlıq, siyasi, mədəni, sosial və iqtisadi sahələrdə inkişafa təkan verən amildir. İnsanlar sərbəst düşüncələrini ifadə etdikdə, onların yalnız fərdi həyatlarına təsir etməz, həm də kollektiv həyatın daha geniş problemlərini gündəmə gətirər.

Güclü və şəffaf media, müstəqil jurnalistika və yazıçıların sərbəst ifadə etdiyi fikirlər, cəmiyyətdəki ən böyük münaqişələri, ədalətsizlikləri və mənfi halları ortaya çıxarar. Bütün bu mübarizələr müxtəlif düşüncələr arasında mübahisələrə yol açar və nəticədə daha sağlam, daha bərabər və ədalətli bir cəmiyyətin yaradılmasına zəmin yaradar.

## Sözdən başlayan azadlıq...

Sözdən başlayan azadlıq yalnız hüquqi və siyasi bir prinsip deyil, eyni zamanda insanın daxili azadlığının, özünü ifadə etməsinin, dünyaya baxışının, yaratma gücünün təzahürüdür. Bu azadlıq cəmiyyətin inkişafını təmin edir, ona yeni istiqamətlər göstərir və hər bir fərdin özünə inamını artırır. Sözdən başlayan azadlıq bəzən dünyanın ən böyük dəyişikliklərinin önünü açan bir qüvvə olur.

Sözlər güclüdür, çünki onlar dəyişə bilər, hərəkətə gətirə bilər və cəmiyyəti dəyişdirə bilər. Bu azadlığın qiymətini dərk etmək, yalnız ona hörmətlə yanaşmaqla deyil, həm də hər bir fərdin məsuliyyətini anlamaqla mümkündür. Fikir və söz azadlığı hər bir cəmiyyətin irəliləməsi, güclənməsi və inkişafı üçün möhkəm bir təməl təşkil edir. Bu təməl insanın özünü azad hiss etdiyi, fikirlərini sərbəst şəkildə ifadə etdiyi və hər bir kəlmənin özündə güc daşıdığı bir cəmiyyətin qapısını açır.

***Sahib***

## Marsda qədim həyat əlamətləri tapılıb

Keçən il NASA-nın Mars aparatı qara və ağ ləkələri olan bir qaya kəşf edib.

AZƏRTAC xəbər verir ki, indi alimlər tapıntını təhlil edərək deyirlər ki, bu, Qırmızı planetdə nə vaxtsa həyatın mövcud ola biləcəyinə dair indiyədək ən güclü sübutlardan biridir.



Keçən yay “Perseverance” roveri milyardlarla il əvvəl suyun mövcud olduğu Marsın şimalındakı quru çay yatağında qeyri-adi kəşf etdi. Orada, tədqiqatçıların fikrincə, qədim mikroskopik həyatın izlərini ehtiva edən xarakterik ləkələri olan qayalar tapıldı.

“Nature” jurnalında dərc olunan məqalədə alimlər qeyd edirlər ki, tapıntı Marsda həyatın mümkün mövcudluğunun ən inandırıcı sübutlarından biridir. Stouni Bruk Universitetinin (Nyu-York) mütəxəssisləri tərəfindən tədqiq edilən qayada kimyəvi reaksiyalar nəticəsində əmələ gəldiyi güman edilən iki mineral var. Yer üzündə bu cür proseslər çox vaxt mikroorqanizmlərin fəaliyyəti ilə əlaqələndirilir.

NASA-nın inzibatçısı Şon Daffi deyib: “Donald Trampın prezidentliyi dövründə ilk dəfə buraxılan “Perseverance” roverinin bu kəşfi Marsda həyatın təsdiqlənməsinə dair indiyədək etdiyimiz ən yaxın kəşfdir”.

“Sapphire Canyon” adlı nümunə Neretva vadisinin kənarındakı qayalıqlardan “Perseverance” tərəfindən toplanıb. Belə ki, 3 milyard ildən əvvəl bir dövrdə gölün mövcud olduğu Jezero kraterinə çay axırdı. 2021-ci ilin fevral ayında rover su ilə əmələ gələn və ya dəyişdirilmiş qayaları axtarmaq üçün bu kraterə enib.

Alimlər vurğulayırlar ki, aşkarlanan reaksiyaların başqa izahları ola bilər.

## Formula 1: Bakı küçələri bu il də yarış həftəsində səhər və axşam saatlarında açıq olacaq

Sentyabrın 19-21-də keçiriləcək Formula 1 Azərbaycan Qran-Prisində paytaxt küçələrinin müəyyən hissələri nəqliyyat üçün istifadəyə veriləcək.

Bakı Şəhər Halqasından AZƏRTAC-a verilən məlumata görə, şəhər sakinlərinin rahatlığı üçün tranzit dəhlizlər bu il də fəaliyyət göstərəcək.

Beləliklə, sentyabrın 15-17-də səhər saat 07:00-09:00 və axşam saat 18:00-20:00-da, sentyabrın 18-də isə səhər 07:00-09:00 və axşam 20:00-22:00-da trekin bəzi hissələrindən nəqliyyat vasitələrinin hərəkəti mümkün olacaq.

Giriş nöqtələri:

- Salyan şosesindən > Neftçilər prospekti və Azneft dairəsi



- M.Lermontov küçəsindən > BMT-nin 50 İlliyi küçəsi və İstiqlaliyyət
- S.Vurğun küçəsindən > Ü. Hacıbəyli küçəsi və Bülbül prospekti
- Bülbül prospektindən > Xəqani küçəsi və Neftçilər prospekti
- Nizami və Puşkin küçələrinin kəsişməsindən > Xəqani küçəsi

Çıxış nöqtələri:

- Neftçilər prospektindən > Bakı Dəniz Limanı və Crescent Mall
- İstiqlaliyyət küçəsindən > Azərbaycan prospekti
- Neftçilər prospektindən > Azneft dairəsi və Dəniz Mall

Bu yollar yalnız tranzit məqsədilə nəzərdə tutulur, dayanma və parklama qadağandır.

Bakı Formula 1 üzrə nadir şəhər traslarından biridir ki, yarış həftəsində belə pik saatlarda yollar açılır. 2024-cü ildə isə yarışdan sonra Bakı rekord sürətlə əvvəlki ritminə qayıdıb və cəmi 16 saata qoruyucu baryerlərin 60%-i sökülərək ərazidən çıxarılıb və şəhər bir gün ərzində tam bərpa olunub.

Beləliklə, həm yarışın təşkili, həm də şəhər sakinlərinin gündəlik rahatlığı paralel şəkildə təmin edilir.

Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4975
Sifariş: 1869
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova